Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

# TƏLİMAT

## Məişət zorakılığına məruz qalmış ahıllar və əlilliyi olan şəxslərə xüsusi dəstək proqramlarının həyata keçirilməsinə dair tövsiyələr



© Avropa İttifaqı 2022.

Bu nəşr Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və NIRAS tərəfindən həyata keçirilən “AVROPA İTTIFAQI GENDER BƏRABƏRLİYİ NAMİNƏ İSLAHATA DƏSTƏK XİDMƏTİ” layihəsi çərçivəsində hazırlanıb. Onun məzmunu yalnız NIRAS-ın məsuliyyətidir və Avropa İttifaqının fikirlərini əks etdirmir.

# TƏLİMAT

## Məişət zorakılığına məruz qalmış ahıllar və əlilliyi olan şəxslərə xüsusi dəstək proqramlarının həyata keçirilməsinə dair tövsiyələr

Bu Təlimat Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın 12.4.4-cü bəndinin icrasına dəstək məqsədi ilə hazırlanmışdır.

# Mündəricat


İxtisarların siyahısı i

Giriş 1

Metodologiya 3

Məişət zorakılığının qurbanı olan əlilliyi olan şəxslər və ahıllara dəstək xidmətlərinə dair Azərbaycanın milli qanunvericilik bazası və icra təcrübəsi 7

Məişət zorakılığının qurbanı olan əlilliyi olan şəxslər və ahıllara dəstək xidmətlərinə dair beynəlxalq standartlar, təcrübələr və modellər 13

Azərbaycanda məişət zorakılığının qurbanı olan əlilliyi olan şəxslərin və ahılların dəstək xidmətlərinə olan ehtiyaclarının qiymətləndirilməsi 22

Nəticə və tövsiyələr 26

Əlavə 1: Məişət zorakılığına məruz qalmış ahıllar və əlilliyi olan şəxslərə xüsusi dəstək proqramı 29

Əlavə 2: Tədqiqat çərçivəsində sorğu edilən maraqlı tərəflərin siyahısı 34

Biblioqrafiya 35

# İxtisarların siyahısı

| | |
|---|---|
| **BMT-nin ƏHK** | Birləşmiş Millətlər Təşkilatının Əlillərin hüquqları haqqında Konvensiyası |
| **VCT** | Vətəndaş Cəmiyyəti Təşkilatı |
| **AŞ** | Avropa Şurası |
| **DOST** | Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi |
| **MZ** | Məişət zorakılğı |
| **AİN** | Avropa İttifaqı Nümayəndəliyi |
| **İH** | İcra Hakimiyyəti (yerli inzibati orqan) |
| **UADM(lər)** | Uşaq və Ailələrə Dəstək Mərkəzləri |
| **GƏZ** | Gender Əsaslı Zorakılıq |
| **İPZ** | İntim Partnyor Zorakılığı |
| **İstanbul Konvensiyası** | Avropa Şurasının Qadınlara qarşı Zorakılıq və Məişət Zorakılığının Qarşısının Alınması və onunla Mübarizə haqqında Konvensiyası |
| **MZQAQ** | Məişət zorakılığının qarşısının alınması haqqında Qanun |
| **MQ** | Monitorinq Qrupu |
| **TN** | Təhsil Nazirliyi |
| **SN** | Səhiyyə Nazirliyi |
| **DİN** | Daxili İşlər Nazirliyi |
| **ƏƏSMN** | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| **QHT** | Qeyri-hökumət Təşkilatı |
| **BMTQAK** | Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı |
| **ƏoŞ** | Əlilliyi olan şəxslər |
| **AQUPDK** | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| **BMTİP** | BMT-nin İnkişaf Proqramı |
| **BMTƏF** | BMT-nin Əhali Fondu |
| **BMTUF** | BMT-nin Uşaq Fondu |
| **ABŞBİA** | ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi |
| **QQZ** | Qadınlara Qarşı Zorakılıq |
| **QQZ/MZ** | Qadınlara qarşı zorakılıq və ya məişət zorakılığı |
| **GREVIO** | Qadınlara Qarşı Zorakılıq və Məişət Zorakılığına Qarşı Fəaliyyət üzrə Ekspertlər Qrupu |

# Giriş

Birləşmiş Millətlər Təşkilatının Əlillərin Hüquqları haqqında Konvensiyasının (ƏHK) Preambulasında[1] "əlillik" təkamül edən anlayış olmaqla, "əlilliyi olan insanların səhhətinin pozulması ilə onlara münasibətin dəyişməsi və cəmiyyətdə baryerlərin yaranması və bu insanların cəmiyyətin həyatında digərləri ilə bərabər səviyyədə tam və səmərəli iştirakına maneələr" kimi müəyyən edilir. Üstəlik, ƏHK-nin 1-ci maddəsində qeyd edilir ki, "əlilliyi olan şəxslərə müxtəlif qüsurlarla yanaşı cəmiyyətdə digər insanlarla eyni əsasda tam və effektiv iştiraka mane ola biləcək uzunmüddətli fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlar aiddir". ƏHK vurğulayır ki, əlillik əlilliyi olan şəxslə onun ətrafı arasında qarşılıqlı əlaqənin nəticəsidir, buna görə də əlillik stereotiplər, sosial normalar və mövcud texnologiyalar kimi sosial amillərdən asılıdır.

Əlillik ilə zorakılıq və sui-istifadənin qurbanları arasında aydın əlaqə var. Avstraliya Statistika Bürosunun[2] 2021-ci ilə dair məlumatları göstərir ki, 12 ay ərzində əlilliyi olan qadınların intim partnyor zorakılığına (İPZ) məruz qalma ehtimalı əlilliyi olmayan qadınlarla nisbətdə iki dəfə çox olmuşdur. Əlillik ilə zorakılıq və sui-istifadənin qurbanları arasında əlaqə olsa da, əlilliyin səviyyəsi ilə zorakılıq və sui-istifadə riski arasında müsbət korrelyasiya var. Eyni araşdırmada qeyd olunur ki, Avstraliya Statistika Bürosu əqli/psixoloji pozuntuları olan qadınların "fiziki qüsurları olan qadınlara nisbətən zorakılığa məruz qalma ehtimalının təxminən üç dəfə daha çox olduğunu" aşkar etmişdir.

Tədqiqatlar dəfələrlə müəyyən edib ki, əlilliyi olan qadınlar digər qadınlara nisbətən daha çox zorakılıq və şiddətə məruz qalırlar.[3] Bununla belə, hazırkı həm yerli həm də beynəlxaq ədəbiyyatlarda məlumatların azlığı, əlillik ilə zorakılığın əlaqəsinə dair araşdırılmaların zəif olması, bu sahədə hər hansı yekun nəticənin çıxarılmasını çətinləşdirir. Eyni zamanda, bir çox hallarda zorakılıq törədənlər istər evdə, istərsə də müəssisələrdə qayğı göstərən şəxslərdir və əlilliyi olan şəxslər çox vaxt yaşamaq üçün maddi və sosial cəhətdən asılı olduqları partnyor və ya ailə üzvləri tərəfindən zorakılığa məruz qalırlar[4]. Məişət zorakılığına məruz qalma riski yüksək olan digər həssas qrup insanlar yaşlılardır

[1] https://www.un.org/disabilities/documents/convention/convoptprot-e.pdf
[2] Avstraliya Statistika Bürosu. Əlillik və Zorakılıq.2021. https://www.abs.gov.au/statistics/people/crime-and-justice/focus-crime-and-justice-statistics/disability-and-violence-april-2021
[3] Robinson S, Frawley P, Dyson S. Access and Accessibility in Domestic and Family Violence Services for Women With Disabilities: Widening the Lens. Violence Against Women. 2021. DOI: 10.1177/1077801220909890
[4] Human Rights Watch. "As if we weren't human: discrimination and violence against women with disabilities in northern Uganda." 2010. New York: Human Rights Watch.

(ahıl şəxslər). Azərbaycanın "Sosial xidmətlər haqqında" Qanununa əsasən[5] ahıl şəxslər dedikdə yaşı 70-ə çatmış şəxslər nəzərdə tutulur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ahıl şəxslərə qarşı zorakılığı ailədə yaşlı insanlara yönəldilmiş və bununla da onlara bir və ya bir neçə dəfə psixoloji və emosional travma, eləcə də fiziki xəsarətin yetirilməsi kimi müəyyən edir[6]. Yaşlılara qarşı zorakılıq fiziki, emosional, cinsi istismar da daxil olmaqla digər istismar formaları, habelə laqeydlik və tərk edilməni əhatə edən hərəkət və hərəkətsizliklər formasında ola bilər. Bu hərəkətlər (və ya hərəkətsizliklər) çox vaxt ahıl şəxslərin uşaqları, həyat yoldaşları və ya digər ailə üzvləri tərəfindən törədilir[7]. Həm əlilliyi olan şəxslərə, həm də yaşlılara qarşı zorakılıq hallarının çoxu barədə məlumat verilmədiyindən, zorakılığın yayılma səviyyəsi və formaları barədə qiymətləndirmələr də tam deyil. 28 ölkə üzrə toplanmış 52 araşdırmanın nəticələrinə əsasən, yaşlılara qarşı zorakılıq hallarının qlobal nisbəti 15,7% olaraq müəyyən edilmişdir. Bu ümumiləşdirilmiş tədqiqatın nəticələrinə əsaslanaraq demək olar ki, dünyada hər altı yaşlı insandan biri zorakılığa məruz qalır8. Azərbaycanda bununla bağlı hər hansı bir araşdırma aparılmayıb.

Azərbaycan Respublikası prezidentinin 27 noyabr 2020-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın 12.4.4-cu bəndinə görə, məişət zorakılığı ilə mübarizə sahəsində əlilliyi olan şəxslər və ahıllar üçün onların ehtiyaclarını nəzərə alacaq xüsusi dəstək proqramlarının hazırlanması Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilmişdir.

Bu Təlimat sözügedən dəstək proqramlarının hazırlanmasına texniki dəstək vermək məqsədilə Avropa Komissiyası tərəfindən maliyyələşdirilən və NIRAS İsveç tərəfindən icra edilən "Aİ Gender Bərabərliyi naminə: İslahat üzrə Yardım Xidməti" layihəsi çərçivəsində hazırlanmışdır. Bundan əlavə, bu Təlimatda məişət zorakılığından zərərçəkmiş şəxslərə dəstək xidmətlərinin göstərilməsinə dair beynəlxaq yanaşma və minimum standartlar, elcə də müxtəlif ölkələrin təcrübələri də əks etdirilmişdir. Bu da sözügedən proqramların hazırlanmasına dəstək verməklə yanaşı, eləcə də "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun və "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan müdaxilələr üçün məlumat əsaslı sübutlar yaradacaqdır.

Bu Təlimatda, həmçinin, məişət zorakılığından zərərçəkmiş əlilliyi olan şəxslər və yaşlıların ehtiyaclarına uyğun inteqrasiya olunmuş sosial xidmətlər modelinin inkişafı istiqamətində təşəbbüsləri əlqələndirmək və təkmilləşdirilmiş inklüziv xidmətlərin təşkili üçün müvafiq tövsiyələr qeyd edilmişdir ki, bunlar da Avropa İttifaqının (Aİ) müvafiq regional təşəbbüsləri (Aİ Gender Bərabərliyi naminə), hökumət, vətəndaş cəmiyyəti, özəl sektor və beynəlxalq inkişaf tərəfdaşları, o cümlədən, BMT-nin agentlikləri ilə sinerji yaratmaqda istifadə oluna bilər.

---

[5] Sosial Xidmət haqqında Qanun. 2011. http://www.e-qanun.az/framework/23195
[6] Dünya Səhiyyə Təşkilatı. Yaşlılara qarşı zorakılıq. 2021. https://www.who.int/en/news-room/fact-sheets/detail/elder-abuse
[7] Yaşlılar üzrə Milli Şura. Yaşlılara qarşı zorakılıq haqqında faktları əldə edinGet the Facts on Elder Abuse. 2021. https://www.ncoa.org/article/get-the-facts-on-elder-abuse
[8] Yon Y, Mikton CR, Gassoumis ZD, Wilber KH. Elder abuse prevalence in community settings: a systematic review and meta-analysis. Lancet Glob Health. 2017 Feb;5(2):e147-e156. doi: 10.1016/S2214-109X(17)30006-2. PMID: 28104184. (LINK)

# Metodologiya

Bu sürətli araşdırmanın məqsədi məişət zorakılığının qurbanı olan yaşlılar və əlilliyi olan şəxslərin ehtiyaclarının müəyyən edilməsi, onların ehtiyaclarının qarşılanması üçün mövcud qanunvericilik, siyasət və proqramlar arasında boşluqların aşkar edilməsi, habelə bu sahədə beynəlxalq standartların və qabaqcıl təcrübələrin müəyyən edilməsidir. Müəyyən edilmiş ehtiyaclar və boşluqlar əsasında Azərbaycanda məişət zorakılığının qurbanı olan yaşlılar və əlilliyi olan şəxslərin müdafiəsinin gücləndirilməsi və onların sosial xidmətlərə çıxışı və xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə bu Təlimat və tövsiyələr siyahısı hazırlanmışdır və istinad üçün AQUPDK-yə təqdim olunmuşdur.

Bu Təlimatın hazırlanması məqsədilə müvafiq yerli və beynəlxaq hüquqi və siyasi çərçivənin qiymətləndirilməsi aşağıdakı tədqiqat metodologiyası üzrə araşdırılıb:

## Müvafiq yerli və beynəlxaq hüquqi və siyasi çərçivənin, o cümlədən tədqiqat hesabatlarının nəzərdən keçirilməsi

Metodologiyanın bu konsepti məişət zorakılığı ilə mübarizə, qurbanların müdafiəsi üzrə hüquqi, sosial, tibbi və digər xidmətlərin göstərilməsi sahəsində müvafiq yerli və beynəlxaq hüquqi və siyasi çərçivənin nəzərdən keçirilməsi, onların ölkə səviyyəsində icra təcrübəsinə dair məlumatların toplanması və təhlili, aşkar edilmiş əsas boşluqlar və bu boşluqların keyfiyyət əsaslı əsas informatorlarla müsahibələr zamanı yerindəcə dəqiqləşdirilməsinə imkan yaradan qiymətləndirmənin əsas hissəsidir. Bu zaman, məişət zorakılığının qurbanı olan yaşlıların və əlilliyi olan şəxslərin müdafiəsi sahəsində beynəlxalq standartların və qabaqcıl təcrübələrin müəyyən edilməsinə xüsusi diqqət yetirilmişdir.

Bu istiqamətdə qanunvericiliyin müxtəlif sahələri üzrə zorakılıq qurbanlarının hüquqi və sosial müdafiəsi ilə əlaqəli normalar nəzərdən keçirilib. Dövlət siyasətinin təhlili isə strategiyalar, proqramlar, tədbirlər planları, dövlət orqanlarının prosedurlarına aid bu kimi sənədləri əhatə edib.

Bundan əlavə, Azərbaycanın qoşulduğu beynəlxaq konvensiyalar, saziş qurumlarının tövsiyələri, yerli və beynəlxalq təşkilatların, o cümlədən BMT-nin hazırladığı tədqiqatlar və hesabatlar, xüsusilə də ölkədə məişət zorakılığı ilə mübarizə və cavab tədbirləri üzrə "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı" mühüm sənəd kimi təhlildə istifadə edilib.

Məişət zorakılığının qurbanlarının, xüsusilə də yaşlılar və əlilliyi olan şəxslərin müdafiəsi üçün dəstək xidmətlərinə dair minimum standartlar, dəstək xidmətlərinin mövcudluğu və əlçatanlığının təhlili üçün aşağıdakı məlumat mənbələrinə istinad edilib:

# Qanunlar, siyasətlər və beynəlxalq standartlar, ikinci dərəcəli məlumat mənbələri

- **MZ, gender və sosial xidmətlərlə bağlı qanunlar və siyasətlər**
    - Məişət zorakılığının qarşısının alınması haqqında Qanun (2010)
    - Gender (kişi və qadınlar) bərabərliyinin təminatları haqqında Qanun (2006)
    - Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı (2020)
    - Vəkillər və vəkillik fəaliyyəti haqqında Qanun (1999)
    - Sosial xidmət haqqında Qanun (2011)

- **MZ məruz qalan yaşlı insanlar və əlilliyi olan şəxslər üçün dəstək proqramları ilə bağlı beynəlxalq standartlar və təcrübələr:**
    - Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə haqqında Avropa Şurasının Konvensiyası (İstanbul Konvensiyası)
    - BMT-nin Əlillərin hüquqları haqqında Konvensiya (CRPD), xüsuslilə də onun 6-cı maddəsi (Əlil Qadınlar)
    - BMT-nin Baş Assambleyasının 16 dekabr 1991- il tarxili 46/91 saylı qətnaməsi ilə qəbul edilmiş BMT-nin Yaşlılar üçün Prinsipləri
    - Qadınlara qarşı ayrı seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiya (CEDAW)
    - CEDAW Komitəsinin Əlil qadınlar haqqında Ümumi Tövsiyə No. 18
    - CEDAW Komitəsinin Qadınlara qarşı zorakılıq haqqında Ümumi Tövsiyə No. 19
    - CEDAW Komitəsinin Yaşlı qadınlar və onların insan hüquqlarının müdafiəsi haqqında Ümumi Tövsiyə No. 27
    - CEDAW Komitəsinin Qadınların ədalət mühakiməsinə çıxışı haqqında Ümumi Tövsiyə No. 33
    - CEDAW Komitəsinin Qadınlara qarşı gender əsaslı zorakılığa dair 19 saylı Ümumi Tövsiyəni yeniləyən 35 saylı Ümumi Tövsiyə

- **Yaşlılar, ƏoŞ, MZ və QQZ qurbanlarının problemləri ilə bağlı milli və beynəlxalq qurumların (BMTƏF, BMTİP, UNICEF, Dövlət Statistika Komitəsi, Daxili İşlər Nazirliyi) hesabatları və CEDAW Komitəsinin Azərbaycan üzrə Yekun Müşahidələri**

- **İsveç, Norveç və Avstriyanın təcrübəsi.**

Nəzərdən keçirilən sənədlərin və hesabatların tam siyahısı Qoşma 2-də (Biblioqrafiya) verilmişdir.

## Keyfiyyət əsaslı tədqiqat – əsas informatorlarla müsahibələr

Keyfiyyət əsaslı təhlil ilkin tapıntılar üzrə tədqiqatın tamamlanması, eləcə də məişət zorakılığının qurbanı olan yaşlıların və əlilliyi olan şəxslərin ehtiyacları barədə zəruri məlumatların əldə edilməsi baxımından əvəzsiz vasitədir. Məlumatların toplanılmasında istifadə olunan belə üsullar müvafiq dövlət orqanlarının səlahiyyətli şəxsləri, habelə yerli və beynəlxaq təşkilatların, ixtisaslaşmış QHT-lərin və müəssisələrin nümayəndələri ilə aparılan 16 müsahibə (11 qadın, 5 kişi müsahib) zamanı məlumatların əldə olunmasına kömək edib. Əlavə olaraq, bu zəmində bir neçə sosial işçi, qadın məsələləri ilə məşğul olan QHT-lərdə çalışan ekspertlərlə görüşlər keçirilib. Dövlət orqanları ilə yarımstrukturlu müsahibələr zamanı AQUPDK tabeliyində Ailə və Uşaqlara Dəstək Mərkəzi (MZ qurbanlarına məsləhət və psixoloji xidmətlərin göstərilməsi), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DOST Agentliyi və Sosial Xidmət Agentliyi (aztəminatlı şəxslərə, ailələrə, o cümlədən uşaqlara, qocalara və əlilliyi olan şəxslərə sosial dəstək və müdafiə xidmətlərinin göstərilməsi), Daxili İşlər Nazirliyi (MZ hallarının qarşısının alınması və qurbanların sığınacaqlara və digər xidmətlərə yönləndirilməsi), Təhsil Nazirliyi (inklüziv təhsilə və əlilliyi olan uşaqlara evdə təhsil və MZ halları barədə məlumatın verilməsi və qurbanların sığınacaqlara və digər xidmətlərə yönləndirilməsi), Səhiyyə Nazirliyi yanında TƏBİB – Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (MZ qurbanlarına, o cümlədən əlilliyi olan şəxslərə və yaşlılara tibbi xidmətin göstərilməsi), eləcə də Sabunçu Rayon İcra Hakimiyyəti yanında "Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə Monitorinq Qrupu" (məişət zorakılığı halları ilə bağlı yerlərdə vəziyyətin qiymətləndirilməsi, zorakılıq qurbanlarının müdafiəsi və müvafiq yardımlarla təmin edilməsi) və Sabunçu Yaşlı insanlara Qayğı Mərkəzinin (yaşlı şəxslərin mənzil və digər xidmətlərlə təmin edilməsi) səlahiyyətli şəxslərindən götürülmüş təfərrüatlı məlumatlar qiymətləndimənin nəticələrinin təsdiqlənməsi və genişləndirilməsində böyük imkanlar yaratmışdır.

Əsas informatorlarla müsahibələr Zoom vasitəsilə aparılmışdır. Hər müsahibə ortalama 40 dəqiqə davam etmişdir.

Müsahibədə iştirak edən səlahiyyətli şəxslər və onların təmsil etdikləri təşkilatların tam siyahısı Qoşma 1-də (Tədqiqatı çərçivəsində sorğu edilən maraqlı tərəflərin siyahısı) verilmişdir.

# Tədqiqatın konseptual çərçivəsi və məhdudiyyətlər

Bu tədqiqatda məişət zorakılığının qurbanı olan yaşlılar və əlilliyi olan şəxslərə minimum standartlara uyğun göstərilməli olan xidmət növlərinin mövcudluğu və əlçatanlığı təhlil edilmişdir. MZ qurbanlarına dəstək xidmətlərinin göstərilməsinə dair minimum standartlar özündə "dövlətlərin və xidmət təminatçılarının nail olmağı hədəflədiyi"[9] aşağıdakı xidmətləri əhatə edir: sığınacaqlar, qaynar xətlər/dəstək xətləri, məsləhət və psixoloji xidmətlər, səhiyyə/tibbi xidmətlər, hüquqi və digər konsultasiya xidmətləri, özünümüdafiə məqsədilə təşkil olunan tədris və təlimlər.

Bu tədqiqatın əsas məqsədinə uyğun olaraq, araşdırma məişət zorakılığı qurbanı olan şəxslərə, xüsusilə də məişət zorakılığı qurbanı olan yaşlılar və əlilliyi olan şəxslərə dəstək xidmətləri ilə bağlı milli və beynəlxalq standartlar, qabaqcıl təcrübələr və modellərlə məhdudlaşır. Ona görə də bu tədqiqat MZ ilə mübarizə sahəsində qabaqlayıcı və digər tədbirlər, eləcə də yaşlılar və əlilliyi olan şəxslər ilə bağlı həyata keçirilən sosial siyasəti və proqramları əhatə etmir.

[9] Avropa Şurası, Qadınlara qarşı zorakılıqla mübarizə: dəstək xidmətləri üçün minimum standartları, 2008. https://www.coe.int/t/dg2/equality/domesticviolencecampaign/Source/EG-VAW-CONF(2007)Study%20rev.en.pdf

# Məişət zorakılığının qurbanı olan əlilliyi olan şəxslər və ahıllara dəstək xidmətlərinə dair Azərbaycanın milli qanunvericilik bazası və icra təcrübəsi

Azərbaycanda gender bərabərliyinin təşviqi, məişət zorakılığı ilə mübarizə sahəsində yeni normativ hüquqi aktların qəbul edilməsi bu sahələrdə milli qanunvericiliyin təkmilləşdirilməsinə səbəb olmuşdur. Belə ki, 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanunun[10] qəbul edilməsi ölkədə bu sahədə hərtərəfli institusional islahatların aparılması, eləcə də məişət zorakılığının qarşısının alınması üzrə profilaktik tədbirlərin həyata keçirilməsi, dəstək xəttlərin yaradılması, zorakılıq qurbanlarının reabilitasiyasını həyata keçirən və təhlükəsizliyini təmin edən yardım mərkəzlərinin, sığınacaqların təşkili məsələlərinə dair əsas hüquqi baza yaratmışdır.

Məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi işinin kompleks şəkildə həyata keçirilməsi və  məişət zorakılığının profilaktikasının təmin edilməsi məqsədi ilə MZ haqqında Qanun aşağıdakı sahələr üzrə tədbirlərin növünü müəyyən edir:

**hüquqi xarakterli** - məişət zorakılığı hallarının araşdırılması, məişət zorakılığına yol vermiş şəxslərin qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilməsi, eləcə də məişət zorakılığı ilə bağlı verilmiş xəbərdarlığın və məhkəmə qərarlarının icrasına nəzarətin həyata keçirilməsi;

**sosial xarakterli** - zərər çəkmiş şəxslərin sosial müdafiəsi üzrə, o cümlədən müvəqqəti sığınacaqla təmin edilməsi, onlara dövlət hesabına hüquqi və tibbi yardımın

[10] "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu". 2010, http://e-qanun.az/framework/20131

göstərilməsi, habelə psixoloji reabilitasiyasının təşkili və digər sosial yönümlü tədbirlərin həyata keçirilməsi (zərər çəkmiş şəxslərin təhsillərinə davam etdirilməsi, yeni peşələrə yiyələnməsi və işlə təmin edilməsində kömək göstərilməsi);

**qabaqlayıcı** - əhali arasında məişət zorakılığının mənfi hüquqi, tibbi və sosial nəticələrinin izah edilməsi, məişət zorakılığının qarşısının alınmasına yönəlmiş digər maarifləndirmə tədbirləri həyata keçirilir.

MZ haqqında Qanunun qəbulu ilə yanaşı onun tətbiqi ilə əlaqədər bir sıra normativ hüquqi aktlar da qəbul edilmişdir. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 aperl 2012-ci il tarixli qərarı ilə “Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası” və “Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası Qaydaları»[11] təsdiq etmişdir. Bundan əlavə, Nazirlər Kabineti “Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması Qaydaları”[12], “Məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması Qaydası”[13] və “Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydasını”[14] təsdiq etmişdir.

Həm MZ haqqında Qanuna, həm də “Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası”na əsasən, məişət zorakılığından zərər çəkmiş şəxslərin müvəqqəti sığınacaqla təmin edilməsi, hüquqi və tibbi yardımlar, işlə təmin edilmə və yeni peşələrə yiyələnməyə köməklik göstərilməsi, eləcə də zərər çəkmiş şəxslərin psixoloji reabilitasiyası və sosial müdafiəsi ilə bağlı yardımların göstərilməsi ödənişsiz əsaslarla dövlət hesabına və qanunvericilikdə nəzərdə tutulmuş digər mənbələr hesabına təmin edilməlidir. Məişət zorakılığından zərər çəkmiş şəxslərə göstərilən xidmətlər dövlət, yerli özünüidarə orqanları (bələdiyyələr), qeyri-hökumət təşkilatları, digər qurumlar və ya şəxslər tərəfindən yaradılan yardım mərkəzləri vasitəsilə təşkil oluna bilər.

MZ haqqında Qanun və əlaqəli qəbul edilmiş digər normativ hüquqi aktlar yalnız qadınları deyil, digər ailə üzvlərini, o cümlədən uşaqları, yaşlı və əlilliyi olan şəxsləri məişət zorakılığı zəminində baş verəbiləcək istənilən fiziki, psixoloji, cinsi və iqtisadi xarakterli zorakılıqdan müdafiə edir. Sözügüdən normativ hüquqi aktlarda yaşlılar və əlilliyi olan şəxslərin məişət zorakılığından müdafiəsi və onların ehtiyaclarına uyğun müvafiq xidmətlərin təmin edilməsi ayrıca nəzərdə tutulmasa da, məişət zorakılığından zərər çəkmiş yaşlılar və əlilliyi

---

11 “Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası” və “Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası Qaydaları” təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 2012. http://www.e-qanun.az/framework/23457?msclkid=2e22caddb52511ec9075cc17220a1603

12 “Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması Qaydaları” təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 2011.

13 “Məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması Qaydası” təsdiq edilməsi haqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 2011. http://e-qanun.az/framework/22718?msclkid=6e800d3ab52611ec9c5c11fe1d90b905

14 “Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası” təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 2012. http://e-qanun.az/framework/23241?msclkid=8dad79bfb52311ec90ed9d7dcedb0408

olan şəxslər yuxarıda göstərilən bütün xidmətlərlə təmin edilməlidir. Bundan əlavə, 27 noyabr 2020-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı”[15] qadınlar, eləcə də əlilliyi olan şəxslər və ahıllar üçün onların ehtiyaclarını nəzərə alacaq xüsusi dəstək proqramlarının hazırlanmasını nəzərdə tutur. Eyni zamanda Fəaliyyət Planında məişət zorakılığından zərər çəkmiş şəxslərin yardım mərkəzləri və sığınacaqlarla təmin olunması məqsədilə sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi yolu ilə təşkili nəzərdə tutulmuşdur.

MZ ilə mübarizə sahəsindəki xüsusi qanunvericilik aktlarından əlavə, “Əlilliyi olan şəxslərin hüquqları haqqında”qanunla[16] da əlilliyi olan şəxslərin işgəncələr və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzalardan qorunması, eləcə də onların yaşayış yerində və yaşayış yerindən kənarda istismarına, zorakılıq və təhqirin bütün formalarından müdafiəsi, şəxsi həyatlarının toxunulmazlığı dövlətin vəzifəsi kimi qeyd olunmuş və təminat verilmişdir. Bundan əlavə, sözügedən qanunda dövlət siyasətinin əsas prinsiplərindən biri kimi əlilliyi olan şəxslərin xidmətlərdən faydalanması və istifadəsi üçün bərabər şərtlərin və imkanların yaradılması vurğulanmışdır. Buraya həm də əlilliyi olan şəxslərin digərləri ilə bərabər səviyyədə fiziki mühit, nəqliyyat, informasiya və rabitədən, o cümlədən informasiya-kommunikasiya texnologiyaları və sistemlərindən, əhaliyə açıq olan və ya təqdim olunan digər obyekt və xidmətlərdən istifadəsinin təmin olunması üçün zəruri tədbirlər daxildir[17].

Yuxarıda qeyd olunan hüquqi bazanın yaradılması və çox sektorlu tərəfdaşlıq üçün möhkəm zəminin yaradılmasına baxmayaraq, praktiki fəaliyyətlər hələ də qənaətbəxş səviyyədə deyildir.

## Yardım mərkəzləri və sığınacaqla təmin olunma

Məişət zorakılığından zərər çəkmiş şəxslərin müvəqqəti sığınacaqla təmin edilməsi, eləcə də dövlət yardım mərkəzlərinin təşkili işi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aparılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Sosial Xidmətlər Agentliyi Nizamnaməsi[18] və “Sosial xidmətlər haqqında” Qanunla[19] müəyyən edilmiş qaydada ölkədə sosial xidmətlər, dəstək və müdafiə işini təşkil etməklə bərabər, sosial xidmət mərkəzlərinə nəzarəti həyata keçirir[20].

[15] “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2020. http://www.e-qanun.az/framework/46358?msclkid=a3e34266b54011ec9cd639a0df4a983c
[16] Əlilliyi olan şəxslərin hüquqları haqqında Qanun. 2018. https://e-qanun.az/framework/39591
[17] İbid
[18] https://www.sosial.gov.az/uploads/files/2020/09/sosial-xidmetler-agentliyi.pdf
[19] Sosial Xidmət haqqında Qanun. 2011. http://www.e-qanun.az/framework/23195
[20] Əhalinin Sosial Müdafiəsi Nazirliyinin internet səhifəsi. https://www.sosial.gov.az/SXA

Agentlik sosial xidmətə ehtiyacı olan şəxslərə (ailələrə)[21], eləcə də MZ haqqında Qanuna uyğun olaraq məişət zorakılığı qurbanlarına sosial xidmət göstərmək, onların sosial müdafiəsi və rifahının yaxşılaşdırılması ilə bağlı tədbirlər görməlidir[22]. Bu hüquqi müddəalara baxmayaraq, çox təəssüf ki, ölkədə məişət zorakılığı qurbanları üçün ayrıca dövlət sığınacağı və ya mərkəzinin yaradılması istiqamətində ciddi bir iş görülməyib[23]. Sosial Xidmətlər Agentliyinin nəzdində fəaliyyət göstərən və həssas qruplar üçün (kimsəsiz uşaqlar, o cümlədən 18 yaşdan yuxarı baxımsız və kimsəsiz uşaqlar) yaradılmış reabilitasiya müəssisəsində (Bakı şəhəri, Zabrat qəsəbəsində yerləşir) 2021-ci ilin yayından etibarən həm də MZ qurbanları üçün sığınacaq və sosial reabilitasiya xidmətləri göstərilməyə başlanmışdır.

Bundan əlavə, hazırda ölkədə QHT-lər nəzdində fəaliyyət göstərən daha iki sığınacaq mövcuddur (Bakı və Gəncə şəhərlərində) və bu mərkəzlər ƏƏSMN tərəfindən MZ qurbanlarına yardım göstərən qeyri-hökumət təşkilatları kimi akkreditasiya edilmişdir. Bakı şəhərində olan sığınacaq “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyi, Gənc şəhərində yerləşən sığınacaq isə “TƏMAS” Regional İnkişaf İctimai Birliyi tərəfindən təşkil edilmişdir. Hər iki sığınacaq MZ qurbanlarına müvəqqəti yaşayış yeri, psixoloji və hüquqi yardım göstərməklə bərabər, qurbanları digər xidmətlərə (məsələn, səhiyyə xidmətlərinə) istiqamətləndirirlər.

Bununla belə, ƏƏSMN tərəfindən akkreditasiya edilmiş QHT-lər arasında “Əlil Qadınlar Cəmiyyəti” İctimai Birliyinin olmasına baxmayaraq, yuxarıda sözügedən təşkilatların əlilliyi olan şəxslərə və ahıllara, onların ehtiyaclarını nəzərə almaqla müvəqqəti sığınacaq və zəruri xidmətlərlə (psixoloji, hüquqi xidmətlər və konsultasiyalar) təmin edilməsi barədə məlumat yoxdur.

# Hüquqi yardımın mövcudluğu və müyəssərliyi

Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsinə əsasən, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ var və qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilməlidir. Bundan əlavə, MZ haqqında Qanunun tələblərinə görə, məişət zorakılığından zərər çəkmiş şəxslər dövlət vəsaiti

[21] Şəxs (ailə) aşağıdakı əsaslardan azı biri olduqda çətin həyat şəraitində hesab edilir: (1) uşaqların valideynlərini itirməsi və ya valideyn himayəsindən məhrum olması; (2) uşaqların sağlamlıq imkanlarının məhdud olması; (3) yetkinlik yaşına çatmayanların baxımsızlığı və ya sosial təhlükəli vəziyyətdə olması; (4) xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyətinin, habelə şəxsə (ailəyə) qulluq və köməklik göstərə biləcək əmək qabiliyyətli qohumların və ya qanuni nümayəndələrin olmaması. Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslərə qulluq və köməklik göstərə biləcək qohumların olmaması müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir; (5) şəxsin ictimai təhlükəli xəstəliyə tutulmasına görə həyat fəaliyyətinin məhdudlaşması; (6) insan alverinin qurbanı olması; (7) məişət zorakılığından zərər çəkməsi; (8) müəyyən yaşayış yerinin olmaması; (9) valideynlərini itirməsi və ya valideyn himayəsindən məhrum olmasına görə sosial xidmət müəssisələrində yaşamış şəxslərin, həmin müəssisələri tərk etdikdən sonra yaşayış yerinin olmaması; (10) şəxsin sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyətində olması.

[22] Sosial Xidmət Agentliyinin Nizamnasəmi. 2020. https://president.az/az/articles/view/39394

[23] Bakı Xəbər “*Zorakılıq qurbanları üçün rəsmi sığınacaq düz 11 ildir ki, tikilmir, 2021.* https://www.baki-xeber.com/sosial/121560.html?msclkid=f7268919b55d11ecbc21faaca6a11721

hesabına hüquqi yardımla təmin olunmalıdırlar. Məişət zorakılığının qurbanı olan şəxslərin, eləcə də yaşlılar və əlilliyi olan şəxslərin hüquqi xidmətdən istifadə etməsi və belə xidmətlərin çatımlılığını təmin edilməsi üçün ilk növbədə MZ haqqında Qanun digər qanunvericilik aktlarına, o cümlədən zərərçəkmişin müdafiə üçün müraciət etdiyi andan etibarən keyfiyyətli və pulsuz hüquqi yardım almaq imkanlarını məhdudlaşdıran “Vəkillər və vəkillərin fəaliyyəti haqqında” Qanunla (1999) uyğunlaşdırılmalıdır [24]. Belə ki, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Qanunun müddəaları “məhkəmədə hüquqi yardıma ehtiyacı olan aztəminatlı şəxslərə hər hansı bir məhdudiyyət qoyulmadan vəkil tərəfindən göstərilən hüquqi yardımın dövlət hesabına həyata keçirilməsini” nəzərdə tutur. Bu o anlama gəlir ki, qanun dövlət hesabına hüquqi yardımın göstərilməsini yalnız aztəminatlı şəxslərə, yalnız məhkəmə prosesi zamanı və yalnız vəkillər tərəfindən göstərilməsini nəzərdə tutur. Belə yanaşma məişət zorakılığı qurbanlarının mənafelərini tam təmin etmir. Çünki, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” qanun yalnız aztəminatlı şəxslərə dövlət hesabına hüquqi yardımın göstərilməsini nəzərdə tutduğu halda, MZ haqqında Qanuna görə sözügedən yardımın edilməsi zərər çəkmiş şəxsin maddi vəziyyətindən asılı deyil. Eyni zamanda “Vəkillər və vəkillik fəaliyyəti haqqında” qanunun aztəminatlı məişət zorakılığı qurbanına yalnız məhkəmə prosesində dövlət hesabına hüquqi yardımla təmin edilməsini nəzərdə tutduğu halda, MZ haqqında Qanun zərər çəkmiş şəxsin müraciət etdiyi andan etibarən hüquqi yardımla təmin edilməsini nəzərdə tutur. Qeyd olunan əlaqədar qanunvercilik aktlarının hələ də uyğunlaşdırılmaması, məişət zorakılığından zərər çəkmiş şəxslər üçün hələ də yardım mərkəzlərinin yaradılmaması, habelə dövlət hesabına vəkilin cəlb edilməsi məqsədilə qanunvericiliklə müəyyən edilən hüquqi prosedurun xeyli vaxt aldığına görə, məişət zorakılığından zərər çəkmiş şəxslərin, o cümlədən məişət zorakılığından zərər çəkmiş yaşlılar və əlilliyi olan şəxslərin hüquqlarının məhkəməyə qədər və məhkəmədə effektiv və operativ müdafiə olunması işi xeyli çətinləşir.

Sözügedən çətinliyin aradan qaldırılası üçün AQUPDK, Vəkillər Kollegiyası və BMT-nin Azərbaycan nümayəndəliyi məişət zorakılığından zərər çəkmiş şəxslərə hüquqi yardımın təşkilinə dair üçtərəfli anlaşma memorandumu imzalamış[25], vəkilliyə namizədlər üçün icbari təhsil proqramı çərçivəsində “Gender əsaslı zorakılıq qurbanlarına hüquqi yardım: milli və beynəlxalq müdafiə mexanizmləri” ilə bağlı kurrikulum hazırlanmış və onun tədrisi davam etdirilmişdir. Bu təşəbbüs vəkillərin ixtisaslaşdırılması istiqamətində atılan müsbət addım olsa da, hələ də məişət zorakılığından zərər çəkmiş şəxslərin dövlət vəsaiti hesabına hüquqi yardımla təmin olunması, elcə də vəkillər ilə hüquq-mühafizə orqanları və yardım mərkəzləri arasında (QHT-lər nəzdindəki) əməkdaşlıq və əlaqələndirmə mexanizmləri yaradılmamışdır.

[24] Vəkillər və vəkillik fəaliyyəti haqqında Qanun.1999. http://www.e-qanun.az/framework/257
[25] AZƏRTAC,https://azertag.az/xeber/Azerbaycanda_meiset_zorakiligindan_zerer_chekmis_sexslere_huquqi_yardim_gosterilmesine_dair_Anlasma_Memorandumu_imzalanib-1366881

# Dəstək xətti, məsləhət və psixoloji xidmətlər

01.12.2020-ci ildən etibarən Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, BMT-nin Əhali Fondu, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə əməkdaşlıq çərçivəsində 860 Gender-əsaslı zorakılıqla bağlı Dəstək Xətti fəaliyyətə başlayıb[26]. Pilot layihə çərçivəsində fəaliyyət göstərən 860 Dəstək Xəttin məqsədi zəng edən şəxsi məlumatlandırmaqla yanaşı, onu dəstəkləmək, mümkün həll yollarına istiqamətləndirmək və təlimatlarla təmin etməkdir. AQUPDK tərəfindən aparılan illik müraciətlərin təhlillərinə görə[27], dəstək xəttinə zəng edənlərin əksəriyyəti qadınlardır (müraciət edənlərin 339 nəfəri qadın, 97-si isə kişidir) və onlar daha çox psixoloji və fiziki zorakılığa məruz qalanlardır. Ümumi zəng edənlərin əksəriyyəti 18-35 yaş arasında olan şəxslər (201 nəfər) olsa da, 56 yaşdan yuxarı olanların sayı 68 olmuşdur. Təhlildə, həmçinin qeyd olunur ki, dəstək xəttinə müraciət edənlərin əksəriyyəti Bakı şəhərindən zəng edənlər olmuşdur. 860 nömrəli Dəstək Xəttinə yalnız şəhər nömrələrindən pulsuz zəng etmək olur, bu da regionalardan olan müraciətlərin sayının az olması üçün ciddi amil ola bilər. Bundan başqa, dəstək xətti barəsində əhalinin məlumatlılığının artırılması istiqamətində istər AQUPDK, istərsə də tərəfdaş təşkilatlar tərəfindən aparılan fəaliyyətlər haqqında məlumata rast gəlinməyib.

AQUPDK tabeçiliyində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərin (UADM) Əsasnaməsinə[28] görə, mərkəzlər, həmçinin zorakılığa məruz qalan şəxslərə, o cümlədən qadınlar və uşaqlara, ailələrə hüquqi və sosial-psixoloji xidmətlərin təşkili istiqamətində fəaliyyət göstərir və bu sahədə sosial yönümlü layihələr həyata keçirirlər. Hazırda regionlarda 11 UADM yaradılıb, onların məişət zorakılığından zərər çəkmiş şəxslərə, xüsusilə də əlilliyi olan şəxslər və ahıllara məsləhət və psixoloji xidmətlərin göstərilməsi istiqamətində hər hansı institusional fəaliyyətin aparılması, eləcə də xidmətlərin çatımlılığı və keyfiyyətinin qiymətləndirilməsinə dair məlumatlar məhduddur.

Yuxarıda qeyd olunanları ümumiləşdirərək ehtimal etmək olar ki, son zamanlar bu məişət zorakılığı ilə mübarizə sahəsində müşahidə olunan siyasətlərin müsbət inkişafına və UADM-lərin yaradılmasına baxmayaraq, hələ də ölkədə məişət zorakılığı qurbanları üçün dəstək xidmətlərinin göstərilməsi (sığınacaq, məsləhət və psixoloji xidmətlər, hüquqi yardım və s) və bu xidmətlərin şəhər və ucqar bölgələrdə mövcudluğu və müyəssərliyi problem olaraq qalmaqdadır.

---

[26] AQUPDK-nin rəsmi veb-səhifəsi. http://scfwca.gov.az/page/meiset-zorakiliginin-qarsisinin-alinmasi?msclkid=771828aeb56b11ec91f39e8e528214b1
[27] AQUPDK-nin rəsmi veb-səhifəsi. http://scfwca.gov.az/store/media/860%20Gender.pdf
[28] AQUPDK-nin nəzdində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin Əsasnaməsi. http://scfwca.gov.az/store/media/UADM-esasname.pdf

# Məişət zorakılığının qurbanı olan əlilliyi olan şəxslər və ahıllara dəstək xidmətlərinə dair beynəlxalq standartlar, təcrübələr və modellər

## Beynəlxalq standartlar

### İstanbul Konvensiyası

Qadınlara qarşı zorakılığın qarşısının alınması ilə bağlı ən əhatəli və tətbiq edilə bilən hüquqi alət İstanbul Konvensiyasıdır. İstanbul Konvensiyasında qurbanların gələcək zorakılıq hallarında müdafiəsi, zorakılığın nəticələrinin aradan qaldırılması və qurbanların normal həyatlarına davam etmələri üçün müvafiq dəstək xidmətləri və yardımların göstərilməsinə dair xüsusi təlimatlar və minimum standartlar nəzərdə tutulmuşdur. İstanbul Konvensiyası (iv fəsil – Müdafiə və Dəstək) və onun izahedici hesabatında[29] (110-144-cü bəndlər) açıq şəkildə bildirir ki, qadınlara qarşı zorakılıq qurbanlarına dəstək xidmətləri "gender" anlayışına əsaslanmalıdır və bütün müdafiə tədbirləri qurbanın "insan hüquqları və təhlükəsizliyi"[30] nə xidmət etməlidir. Bundan əlavə, dəstək xidmətləri qurbanın səlahiyyətləndirilməsinə, o cümlədən "iqtisadi müstəqilliyinə" [31] nail olmaq üçün əlverişli mühitin yaradılmasına yönəlməlidir. İstanbul Konvensiyasında, həmçinin qeyd olunur ki, "həssas qrupa daxil olan şəxslərin xüsusi ehtiyacları…" diqqətlə və uyğun şəkildə qarşılanmalıdır. Konvensiyanın müddəalarında əks olunan "həssas qrupa daxil olan şəxslər" termini digər şəxslərlə yanaşı (məsələn, hamilə qadınlar və azyaşlı uşaqları

[29] Avropa Şurasının "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizəyə dair Konvensiyası"nın İzahlı Hesabatı. https://eige.europa.eu/resources/Explanatory%20report.pdf
[30] İbid
[31] Avropa Şurasının "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizəyə dair Konvensiyası"nın İzahlı Hesabatı. https://eige.europa.eu/resources/Explanatory%20report.pdf

olan qadınlar, kənd və ya ucqar ərazilərdə yaşayan şəxslər, qaçqınlar və s) "…əlilliyi olan şəxslər, o cümlədən əqli və ya zehni pozuntusu olan şəxslər….yaşlılar"ı da əhatə edir[32].

İstanbul Konvensiyası açıq şəkildə "ümumi və xüsusi xidmətlər" arasında fərq qoyur. "Ümumi dəstək xidmətləri"nə yalnız zorakılıq qurbanları üçün nəzərdə tutulmayan, lakin bütövlükdə əhaliyə xidmət edən və dövlət orqanları tərəfindən göstərilən səhiyyə, məşğulluq xidmətləri kimi sosial xidmətlər aiddir. Digər tərəfdən, "ixtisaslaşdırılmış dəstək xidmətləri" qadınlara qarşı zorakılığın və ya məişət zorakılığının qurbanlarının ehtiyaclarına uyğunlaşdırılmış dəstək xidmətləri və yardımlarını əhatə edir və geniş əhali üçün nəzərdə tutulmur. "İxtisaslaşdırılmış dəstək xidmətləri" dövlət orqanları və ya QHT-lər tərəfindən müxtəlif maliyyə mənbələri hesabına icra edilsə belə[33], bu cür xidmətlər qurbanların ehtiyaclarına uyğunlaşdırılmış şəkildə və optimal dəstək və ya yardımlar edilməklə qurbanları gücləndirmək məqsədi daşımalıdır. Belə dəstək xidmətlərinin növünə sığınacaq və təhlükəsiz yaşayış yeri, tibbi xidmət, qısa və uzunmüddətli psixoloji konsultasiya, hüquqi məsləhət və vəkil ilə təmin olunma, qaynar xətt və s. kimi xidmətlər daxildir. Bu xidmətlər ölkə daxilində bütün qurbanlar üçün kifayət qədər yetərli sayda və müyəssər olmalıdır.

## BMT-nin müvafiq konvensiyaları

**BMT-nin Əlillərin Hüquqları haqqında Konvensiyası**[34] (BMT-nin ƏHK) əlilliyi olan şəxslər (ƏoŞ) üçün məlumat və xidmətlərin müyəssərliyinə dair bir sıra öhdəlikləri nəzərdə tutur. Belə ki, iştirakçı dövlətlər "ƏoŞ üçün mobillik vasitələri.., eləcə də dəstək xidmətləri və müəssisələr haqqında məlumatlar təqdim etməlidirlər". BMT-nin ƏHK həmçinin tələb edir ki, "istimarın, zorakılığın və ya sui-istifadənin hər hansı formasının qurbanı olmuş əlilliyi olan şəxslərin fiziki, emosional və psixoloji cəhətdən bərpasına, reabilitasiyasına və sosial reinteqrasiyasına kömək etmək üçün bütün lazımi tədbirlər, o cümlədən hüquqlarını müdafiə xidmətləri" təşkil edilməlidir. BMT-nin ƏHK, xidmətlərin çatımlılığının (ətraflı məlumat əldə etmək, heç bir ayrı-seçkiliyə məruz qalmadan ünsiyyət və fiziki əlçatanlıq) vacibliyini vurğulayır.

**BMT-nin Yaşlılar üçün Prinsipləri**[35] Müstəqillik, İştirak, Qayğı, Özünü-realizə və Ləyaqət sahələrində 18 prinsipdən ibarətdir. Qətnamədə vurğulanır ki, "yaşlılar ləyaqət və təhlükəsizlik şəraitində yaşamalı, istismar və fiziki və ya ruhi zorakılıqdan azad olmalıdırlar" (17-ci prinsip). Həmçinin qeyd olunur ki, yaşlılar hər hansı sığınacaqda, qayğı və ya müalicə müəssisəsində yaşadıqda onların ləyaqətinə, inanclarına, ehtiyaclarına tam hörmət ilə yanaşılmalı, insan hüquqlarından və əsas azadlıqlarından istifadə edə bilməlidirlər (14-cü prinsip). Bu qətnamə prinsiplərə əsaslandığı üçün dövlətlər üzərində ayrıca öhdəliklər qoymur və ya zorakılıq qurbanı olmuş yaşlı insanların ehtiyaclarına uyğun xidmətlərin göstərilməsinə dair müddəalar nəzərdə tutmur.

[32] İbid
[33] İbid
[34] BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyası, 2006. https://www.internationaldisabilityalliance.org/sites/default/files/documents/crpd_english.pdf
[35] BMT-nin Baş Assambleyasının Yaşlılar üçün Prinsipləri haqqında 46/91 saylı qətnaməs. 1991.

**BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyası (CEDAW)** qadın və qızların hüquqlarını bir daha təsdiq etməklə onların öz hüquqlarında tam istifadələri üçün iştirakçı dövlətlərə fəaliyyət istiqamətləri təqdim edir. CEDAW-da əlilliyi olan və ya yaşlı qadınlara xitab edən mətn yoxdur. Lakin "Əlilliyi olan Qadınlar haqqında 18 saylı Ümumi Tövsiyə"[36] ilə CEDAW Komitəsi iştirakçı dövlətlərdən əlilliyi olan qadınlar və onların xüsusi vəziyyəti haqqında məlumatları dövri hesabatlarına daxil etməyi tələb edir.

CEDAW Komitəsinin "Qadınlara qarşı zorakılıq haqqında 19 saylı Ümumi Tövsiyəsi"[37] qadınlara qarşı zorakılığın (QQZ) ətraflı tərifini verməklə, QQZ-nin bütün növlərini ayrı-seçkilik formaları kimi müəyyən edir. Bundan əlavə, 19 saylı Ümumi Tövsiyə ilə, iştirakçı dövlətlərə QQZ qurbanları üçün "müvafiq qoruyucu və dəstəkləyici xidmətlərin təmin edilməsi" tövsiyə olunur. Qurbanlara göstəriləcək dəstək xidmətlərinə dair göstərişdə qeyd olunur ki, "iştirakçı dövlətlər məişət zorakılığı, zorlama da daxil olmaqla cinsi zorakılıq və gender əsaslı zorakılığın digər formalarının qurbanları üçün sığınacaqlar, xüsusi təlim keçmiş işçilər tərəfindən göstərilən tibbi xidmətlər, reabilitasiya və məsləhət xidmətləri yaratmalı və ya onlara dəstək verməlidir". Eyni zamanda belə xidmətlər kənd qadınları üçün müyəssər olmalı və lazım gəldikdə təcrid olunmuş icmalarda xüsusi xidmətlərin göstərilməsi təmin edilməlidir.

CEDAW Komitəsinin "Qadınlara qarşı gender əsaslı zorakılığa dair 35 saylı Ümumi Tövsiyəsi"[38] 19 saylı Ümumi Tövsiyəni yeniləməklə bərabər, QQZ/MZ qurbanlarının müdafiəsi üçün mexanizmlərin yaradılması və xidmətlərin müyəssərliyi baxımından daha əhatəli öhdəliklər müəyyən edir. Belə ki, iştirakçı dövlətlərə tövsiyə edir ki, qurbanlar və onların ailə üzvləri üçün "pulsuz və ya aşağı qiymətə yüksək keyfiyyətli hüquqi yardım, tibbi, psixo-sosial və məsləhət xidmətləri, təhsil, əlverişli mənzil, torpaq, uşaq baxımı, təlim və digər xidmətlərə çıxışın təmin edilməsi yolu ilə effektiv müdafiə tədbirləri həyata keçirilsin". Bundan əlavə, "24 saat pulsuz yardım xəttləri, kifayət sayda təhlükəsiz və təchiz olunmuş böhran və dəstək mərkəzləri, habelə qadınlar, onların uşaqları və digər ailə üzvləri üçün adekvat sığınacaqlar yaradılmalıdır". Belə xidmətlər qurbanların ehtiyaclarına müvafiq və müyəssər olmalı, o cümlədən əlilliyi olan qurbanlar üçün maneələr aradan qaldırılmalıdır.

CEDAW Komitəsinin "Yaşlı qadınlar və onların insan hüquqlarının müdafiəsi haqqında 27 saylı Ümumi Tövsiyəsi"[39] iştirakçı dövlətləri yaşlı qadınların və kişilərin bərabər hüquqlarını təmin etmək üçün xüsusi tədbirlər görməyə çağırır. Sənəddə açıq şəkildə bildirilir ki, iştirakçı dövlətlər "əlilliyi olan şəxslər də daxil olmaqla yaşlı qadınlara qarşı zorakılığı, o cümlədən cinsi zorakılığı, məişət zəminində və ya institusional müəssisə şəraitində baş verməsindəən asılı olmayaraq zorakılıq kimi tanıyan və qadağan edən qanunlar hazırlamalıdır". Bundan əlavə, iştirakçı dövlətlərin "yaşlı qadınlara qarşı bütün

[36] http://eidhr.wiki.huji.ac.il/images/Cedawgr18-en.pdf
[37] https://tbinternet.ohchr.org/Treaties/CEDAW/Shared%20Documents/1_Global/INT_CEDAW_GEC_3731_E.pdf
[38] https://tbinternet.ohchr.org/Treaties/CEDAW/Shared%20Documents/1_Global/CEDAW_C_GC_35_8267_E.pdf
[39] https://www2.ohchr.org/english/bodies/cedaw/docs/CEDAW-C-2010-47-GC1.pdf

zorakılıq aktlarını araşdırmaq, təqib etmək və cəzalandırmaq öhdəliyi vardır". Baxmayaraq ki, CEDAW Komitəsi 27 saylı Ümumi Tövsiyəsində yaşlı qadınların zorakılığa məruz qalma riskinin yüksək olduğunu vurğulasa da, o, QQZ/MZ-nin yaşlı qurbanları üçün xidmətlər haqqında müddəalar təqdim etmir.

CEDAW Komitəsinin "Qadınların ədalət mühakiməsinə çıxışı haqqında 33 saylı Ümumi Tövsiyəsi"[40] ilə Komitə iştirakçı dövlətlərə "qadınlara qarşı zorakılıq hallarında qadınların ədalət mühakiməsinə çıxışını yaxşılaşdırmaq üçün mövcud prosedurların və atmalı olduğu addımların sayını azaltmağa çağırmaqla bərabər, bir sıra hüquqi və sosial xidmətlər göstərəcək dəstək mərkəzlərini yaratmlarını tövsiyə edir. Bu cür mərkəzlər qadınlara qarşı zorakılıq hallarından əlavə, ailə məsələləri, sağlamlıq, sosial təminat, məşğulluq, əmlak kimi sahələrdə də hüquqi məsləhət və yardım göstərə, eləcə qadınlar üçün dəstək xidmətlərini əlaqələndirə bilərlər. Komitə xüsusilə vurğulayır ki, bu cür mərkəzlər bütün qadınlar üçün çatımlı olmalıdır və əlilliyi olan qadınların ədalət mühakimə sisteminə çıxışına xüsusi diqqət yetirilməlidir". Bunun üçün hüquqi yardım xidmətləri qadınların ehtiyaclarına cavab verən, əlçatan, davamlı olmalıdır və müdafiə sistemləri institusionallaşdırılmalıdır. Nəhayət, Komitə, iştirakçı dövlətlərə bu istiqamətdə QHT-lər və inkişaf agentlikləri ilə əməkdaşlıq edərək "hüquqi yardımı təmin edəcək şəxslərin ixtisaslarının artırılması ilə keyfiyyətli hüquqi yardım xidmətlərinin mövcudluğunu təmin etməyi tövsiyə edir".

# Beynəlxaq təcrübələr

## İsveç

İsveçdə QQZ/İPZ və ya MZ qurbanlarına dəstək xitmətlərinin göstərilməsi yerli bələdiyyələrin tabeliyindəki Sosial Xidmətlər (Socialtjänsten) şöbəsi vasitəsilə təmin edilir. Bu cür dəstək xidmətlərin təşkili üçün qanunvericilik bazası ayrı-ayrı bələdiyyələrə yerli ehtiyaclara və resurslara əsaslanaraq göstərilən dəstək və xidmətləri formalaşdırmaqda geniş imkanlar tanıyır. Buna görə də qurbanın yaşadığı yerdən asılı olaraq göstərilən dəstək xidmətləri fərqli ola bilər. Bundan əlavə, qurbanlara dəstək xidmətləri və sığınacaqlarla təmin olunma QHT-lər vasitəsilə də həyata keçirilir. 2018-ci ilə aid olan məlumata görə, sözügüdən ildə İsveçdə məişət zorakılığının qurbanı olan qadınlar üçün təxminən 1100 yerlik 200 sığınacaq fəaliyyət göstərir.

Bələdiyyələrin tabeliyindəki Sosial Xidmətlər (Socialtjänsten) vasitəsilə göstərilən dəstək xidmətləri - üç növə bölünür: mənzil dəstəyi (təcili, qısamüddətli və uzunmüddətli yaşayış üçün), maliyyə dəstəyi və həmçinin, qaynar xətti və üz-üzə görüşlər şəklində psixo-sosial dəstək. Psixo-sosial dəstəyə psixoloji konsultasiya, həmçinin məhkəmə prosesi boyu emosional dəstək, dövlət qurumlarından kömək almaqla bağlı müraciətlərin edilməsində köməklik etmək və koordinasiya (sosial müdafiə qurmları, məhkəmə və

[40] https://tbinternet.ohchr.org/Treaties/CEDAW/Shared%20Documents/1_Global/CEDAW_C_GC_33_7767_E.pdf

hüququ mühafizə orqanları, vəkil və digərləri ilə əlaqə yaratmaq). Bələdiyyələrədə əlavə, QHT-lər tərəfindən yaradılan qadın sığınacaqları da fəaliyyət göstərir və belə sığınacaqlar daha çox QQZ/MZ qurbanı olmuş qadın və qızlara müvvəqəti sığınacaq və zəng vasitəsilə məsləhət xidmətləri təklif edirlər.

Təqdim olunan bütün xidmətlər pulsuzdur və şəxsə aid məlumatların konfidensiallığına tam təminat verilir.

Bələdiyyələrin tabeliyindəki Sosial Xidmətlər (Socialtjänsten) və QHT-lər zorakılıq qurbanlarını sığınacaqlarda fəal şəkildə yerləşdirməyə cəhd etsələr də, əlilliyi olan qadınlar üçün bu cür sığınacaqlara giriş məhdudiyyətləri var[41]. Bundan əlavə, qadın sığınacaqların fəaliyyəti kömək istəyən şəxslərin özünə qulluq edə bilmə prinsipi üzərində qurulur. Bu o mənaya gəlir ki, sığınacağa müraciət edən şəxslərin fiziki və mental vəziyyəti müstəqil özünə qulluq edə biləcək səviyyədə olmalıdır və digər şəxslərin daimi köməyindən asılı olmamalıdırlar. Bu da QQZ/MZ qurbanı olmuş əlilliyi olan şəxslər və ahıllar üçün ciddi məhdudiyyətlər yarada bilər.

*Bilik, bacarıq və təcrübə çatışmazlığı* – İsveçdə QQZ/MZ qurbanları üçün təklif olunan çoxsaylı xidmətlərə baxmayaraq, QQZ/MZ qurbanı olmuş əlilliyi olan şəxslər və ahıl insanlara necə dəstək olmaq barədə bilik, bacarıq və təcrübə çatışmazlığı mövcuddur. Problemi həll etmək üçün İsveç Qurbanlara Dəstək təşkilatı (Brottsofferjouren[42]), İsveç Əlillərin Hüquqları Federasiyası (Funktionsrätt Sverige[43]) və İsveç Böyüklər üçün Təhsil Assosiasiyası (Studieförbundet Vuxenskolan[44]) birgə 2015-ci ildə İsveçin 5 bələdiyyəsində ədəbiyyat dərnəkləri təşkil etmişdir. İsveç Qurbanlara Dəstək təşkilatı QQZ/MZ qurbanlarına dəstək göstərilməsi ilə bağlı məlumatlandırmanı artırmaqda, İsveç Əlillərin Hüquqları Federasiyası isə ƏoŞ və onların ehtiyacları haqqında məlumat və dəstək perspektivlərini təqdim etməkdə töhfə vermişdir.

## Norveç

İsveçdə olduğu kimi, Norveçdə də QQZ/MZ qurbanlarının dəstək xidmətləri ilə təmin edilməsi məsuliyyəti bələdiyyələrin üzərinə düşür. Dəstək xidmətlərindən əlavə, həmçinin 2009-cu ildə qəbul edilmiş Böhran Mərkəzləri haqqında qanun (Krisesenterloven) ilə bələdiyyələrin üzərinə zorakılıq qurbanlarına dəstək, müdafiə və onları istiqamətləndirmə, eləcə də böhran mərkəzlərində hərtərəfli xidmətlər ilə (məsələn, sığınacaq) təmin etmə öhdəliyi qoyulmuşdur. Bu gün Norveçdə böhran mərkəzlərinin yarısından çoxu bələdiyyələr, qalanları isə özəl fondlar və ya QHT-lər tərəfindən idarə olunur.[45]

---

[41] GREVIO, İlkin Qiymətləndirmə Hesabatı, İsveç. 2019. https://rm.coe.int/090000168091e686

[42] Brottsofferjouren – cinayət qurbanlarına, şahidlərə və cinayətdən təsirlənən digər insanlara köməklik və dəstək göstərən qeyri-hökumət təşkilatıdır. https://www.brottsofferjouren.se/

[43] https://funktionsratt.se/

[44] https://www.sv.se/

[45] NKVTS, "Bələdiyyələrin qadınlara qarşı zorakılıq ilə əlaqədar hərtərəfli fəaliyyəti" Hesabat, 2021. https://www.ldo.no/globalassets/_ldo_2019/_arrangementer/kommunenes-voldsarbeid_rapport_15juni2021.pdf

Norveçdə bələdiyyə tabeliyindəki Böhran Mərkəzləri bələdiyyə büdcəsi hesabına maliyyələşdirilir. Ancaq bələdiyyənin ölçüsünə, büdcəsinin həcminə, siyasi və iqtisadi prioritetlərinə görə onların zorakılıq qurbanlarına təklif etdikləri xidmətlərin sayında böyük fərq var. Böhran mərkəzlərində aşağıdakı xidmətlər göstərilir[46]: bir və ya bir neçə günlük üçün təhlükəsiz yer (mənzil); hüquqları və mümkün növbəti addımlar haqqında məlumat və məsləhət; qurbanların kömək və məsləhət üçün zəng edə biləcəyi telefon/qaynar xətti; ədliyyə, polis və qəyyumluq idarələri, habelə sığorta, sosial müdafiə kimi digər dövlət xidmətləri ilə əlaqə saxlamaqda köməklik; və digər dəstək xidmətləri və fəaliyyətlər. Böhran mərkəzlərinin 24/7 saat açıq telefon nömrəsi var, ancaq e-poçt vasitəsilə də əlaqə saxlamaq olar. Təklif olunan bütün xidmətlər pulsuzdur və zorakılıq qurbanlarının məlumat, kömək və dəstək almaları üçün mərkəzdə qalmaları şərt deyil. Mərkəzlər əlilliyi olan insanlar üçün də müyəsərdir. Lakin, Norveç cəmiyyətində bir neçə qrup var ki, onlar eyni hüquqlara malik olsalar da, vəziyyətlərinə görə sığınacaqlarda eyni xidmətlərdən istifadə edə bilmirlər. Bu qruplara əlillər (müxtəlif səbəblərdən və dərəcələrə görə anadangəlmə və ya qazanılmış fiziki, psixoloji, əqli və ya intellektual pozuntusu olan şəxslər), LGBTQI icmasına mənsub insanlar, həmçinin narkotik və ya alkoqol asılılığı ilə mübarizə aparan insanlar daxildir[47].

2016-2021-ci illər ərzində Norveçdə ahıl insanlara zorakılıq və zorakılığın qarşısının alınmasına, aşkarlanmasına və onlarla mübarizəyə töhfə verəcək "**TryggEst**" (Norveç dilində "ən təhlükəsiz" deməkdir) pilot layihəsi icra olunmuşdur. "TryggEst"[48] bir tərəfdən həssas qrupa daxil olan yaşlı insanlara qarşı zorakılığın qarşısının alınması, digər tərəfdən isə ahıllara qarşı zorakılıq əlamətləri və şübhələri barədə məlumatların dəqiq idarə edilməsi və onların ehtiyacına uyğun hərəkət etmələri üçün bələdiyyə səviyyəsində həyata keçirilən pilot layihə olmuşdur. TryggEst-i həyata keçirən hər bir bələdiyyəyə daxil olan məlumatlar (telefon nömrəsi və e-poçt ünvanı vasitəsilə) vahid əməliyyat qrupu tərəfindən izlənilir və dərhal müvafiq müdaxilə tədbirləri görülür. TryggEst modeli çərçivəsində yaşlı insanlar üçün ayrıca xidmətlər təklif olunmur, bu model daha böyük və hərtərəfli müdafiə modelin parçası halına gələrək, zorakılıq sahəsində mövcud olan işlərə və xidmətlərə uyğunlaşdırıla bilər. TryggEst Norveçin bütün bələdiyyələrində tətbiq olunacağı gözlənilir.

## Avstriya

Məişət zorakılığı halların qarşısının alınması və qurbanların müdəfiəsində Avstriya modeli ən yaxşı təcrübə hesab edilir və ən təsirli cəhəti onun hüquqi və sosial tədbirlərin sıx əlaqələndirilməsidir.[49]

[46] https://www.krisesenter.com/finn-ditt-senter/
[47] NKVTS, "Bələdiyyələrin qadınlara qarşı zorakılıq ilə əlaqədar hərtərəfli fəaliyyəti" Hesabat, 2021. https://www.ldo.no/globalassets/_ldo_2019/_arrangementer/kommunenes-voldsarbeid_rapport_15juni2021.pdf
[48] https://bufdir.no/vold/TryggEst/Hva_er_tryggest/
[49] BMT-nin Qadınların İnkişafı Agentliyi. https://www.un.org/womenwatch/daw/egm/vaw-gp-2005/docs/experts/logar.dv.pdf

Avstriyanın Zorakılığa Qarşı Müdafiə Qanunu üç əsas istiqamət üzrə müdafiə tədbirləri müəyyən edir:[50]

i) Zorakılıq törədən şəxsin 10 və ya 20 gün müddətinə polis tərəfindən evdən məcburi çıxarılması və yaxınlaşmaqla bağlı qadağa əmrləri;
ii) Mülki qanunvericiliyə əsasən uzunmüddətli mühafizə ordeni ilə müdafiə (3 ay və daha çox müddətə);
iii) Müdafiə Mərkəzləri yaratmaqla qurbanlara dəstək, zorakılığın qarşısının alınması tədbirləri və müdaxilələrin əlaqələndirilməsi.

Sözügedən qanunun icrasına töhfə vermək və zorakılıq qurbanlarının dəstək almasını təmin etmək üçün qadın QHT-lər tərəfindən Avstriyanın bütün əyalətlərdə müdafiə mərkəzləri yaradılıb. Hazırda Avstriyada qadınlar və onların uşaqları üçün təxminən 400 yeri olan 29 qadın sığınacağı fəaliyyət göstərir[51]. Bundan əlavə, qadınlar üçün bir sıra məsləhət mərkəzləri, regional yardım xətləri və immiqrant qadınlara yardım edən mərkəzlər var. Həmçinin federal hökumət tərəfindən maliyyələşdirilən ümummilli 24/7 fəaliyyət göstərən qadınlar üçün pulsuz yardım xətti var. Ən yaxşı təcrübə göstəricisi isə ölkə miqyasında adekvat qadın sığınacaqların olması (on min sakinə minimum bir yer), bu cür sığınacaqlarda 24 saat xidmət, və sığınacaqlara pulsuz nəqliyyatın təmin edilməsidir.

Məişət zorakılığından müdafiə ilə bağlı Avstriya qanunvericiliyi çox vaxt yaxşı təcrübə nümunəsi kimi qəbul edilsə də, o əlilliyi olan şəxslərin vəziyyətini adekvat şəkildə nəzərə almır.[52] Birgə bəyanatında Avstriya Əlillər üzrə Milli Şurası və Avropa Əlillər Forumu qeyd edir ki, həm xidmətlərin, həm də məlumatların əlilliyi olan qurbanlar üçün müəyəssər olmasını təmin etmək üçün Avstriya hökuməti müvafiq tədbirlər görməlidir. Belə tədbirlərə, digər məsələlərlə yanaşı, zorakılığın qurbanı olan əlil qadınlar üçün əlavə dəstək mexanizmlərinin tətbiqi, əlilliyi olan qadınları dəstəkləyən təşkilatların adekvat maliyyələşdirilməsi, əlilliyi olan qadınlara qarşı zorakılıqla bağlı məlumatların toplanması və tədqiqatı və müvafiq çərçivədə ictimai məlumatlandırma kampaniyaların təşkili daxildir[53].

Əlavə olaraq, Qadınlara Qarşı Zorakılıq və Məişət Zorakılığına Qarşı Fəaliyyət üzrə Ekspertlər Qrupu (GREVIO) Avstriya üzrə ilkin qiymətləndirmə hesabatında (2017)[54] qeyd etmişdir ki, qadın sığınacaqları mövcud yaşayış yerlərinin bir hissəsini əlilliyi olan şəxslərə ayıra bilərlər. Buna nümunə gətirən GREVIO qeyd edir ki, Qraz şəhərindəki "FrancisCa Frauenwohnhaus" sığınacağı 80 nəfərə yaxın qadın və uşağı qəbul edir.

[50] https://www.un.org/womenwatch/daw/egm/vaw-gp-2005/docs/experts/logar.dv.pdf
[51] Avstriya Qadın Sığınacaqları Assosiasiyası. https://www.aoef.at/index.php
[52] Avstriya Əlillərin Milli Şurası (OeAR) və Avropa Əlillər Forumun (EDF) birgə bəyannatı. https://tbinternet.ohchr.org/Treaties/CAT/Shared%20Documents/AUT/INT_CAT_NGO_AUT_22092_E.pdf
[53] İbid.
[54] GREVIO Avstriya üzrə ilkin qiymətləndirmə hesabatı. 2017. https://rm.coe.int/grevio-report-austria-1st-evaluation/1680759619%20para%20204

Bu sığınacaq, həmçinin yaşayış yerinin 50 faizini xüsusi qayğıya ehtiyacı olan qadınlara (məsələn, fiziki və əqli pozuntuları olan şəxslərə) ayırır

# Beynəlxalq modellər

## Əlilliyi olan qadınların xidmətlərə çıxışını yaxşılaşdırılması üzrə tövsiyələr

Qadınlar Zorakılığa Qarşı Avropa (WAVE) təşkilatı tərəfindən hazırlanmış "Əlilliyi olan qadınlar üçün xidmətlərə əlçatanlığın təkmilləşdirilməsi üzrə sənəd"də55 qeyd edir ki, "dəstək xidmətlərinə çıxışın olmaması İstanbul Konvensiyasının 20-ci Maddəsinin müddəalarına ziddir və bütün qurbanların dəstək xidmətlərinə çıxışını təmin edilməsi üçün tədbirlər görməyə çağırırıq". Həmçinin təcrübədə rast gəlinən bir sıra çətinlikləri ümumiləşdirərək bildirilir ki:

i) Xidmətlər çox vaxt ƏoŞ üçün əlçatmaz olur. Buna görə də, ƏoŞ-nin müəyyən xidmətə çıxışı üçün hansı maneələrin mövcud olması diqqətlə nəzərdən keçirilməlidir.

ii) Mövcud xidmətlər haqqında məlumatlar brayl şrifti, işarə dili və oxunması asan materiallar kimi xüsusi ehtiyaclara uyğun üsullarla çatdırılmalıdır. Eyni zamanda həmin məlumatlar müxtəlif yerlərdə yayıla bilər, məsələn: ƏoŞ ilə işləyən təşkilatlar, səhiyyə müəssisələri, internet sersursları, dövlət qurumları və s.

iii) ƏoŞ-lərin daha əlçatan xidmətlərlə təmin edilməsi və ehtiyacları barədə polis və ədliyyə, əlillərlə işləyən sosial işçilər, təşkilatlar və s. kimi peşəkarların bilik və təcrübələrini artırmaq məqsədilə təlimlərin təşkili çox vacibdir.

iv) Hər hansı bir program/xidmətlərin hazırlanması zaman ƏoŞ-lərin prosesə cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir, çünki onlar xidmətlərin daha əlçatan və səmərəli olmasına nəyin kömək edəcəyi barədə ilkin biliklərə malikdirlər.

v) Ehtiyaclar və çətinliklər, onların həlli yolları haqqında hərtərəfli anlayış əldə etmək və birgə tədbirlər görülməsi üçün ƏoŞ, təşkilatlar və digər peşəkarlar arasında şəbəkələşmə və əməkdaşlıq çox vacibdir.

vi) Xidmətlərin daha əlçatan və davamlı olması üçün sabit maliyyələşdirmə zəruridir. Xidmətlərin əlçatan və səmərəli olması üçün QQZ/MZ qurbanları olmuş ƏoŞ ehtiyacları haqqında məlumat toplamaq və onlara uyğun xidmətlər təklif etmək çox vacibdir.

## MZ qurbanları olan əlil qadınlara dəstəyin göstərilməsi üçün Səkkiz Minimum Standart

Avstraliyada əlilliyi olan qadınların ehtiyaclarının mövcud məişət zorakılığı sahəsindəki xidmət standartlarına daxil edilməsini dəstəkləmək üçün səkkiz minimum standartdan ibarət matris hazırlanmışdır[56].

[55] WAVE, 2017. http://fileserver.wave-network.org/researchreports/Thematic-Paper-WWD-2017.pdf

[56] Lucy Healey, Cathy Humphreys, İnklüziv Məişət Zorakılığı Standartları: Əlilliyi olan Qadınlar üçün Müdaxilələrin Təkmilləşdirilməsi üçün Strategiyalar? 2013. https://www.researchgate.net/publication/236072722_Inclusive_Domestic_Violence_

Bu standart aşağıdakı kimi qruplaşdırılır:
1) Əlilliyi olan qadınların xidmətlərin yaradılması və təkmilləşdirilməsi prosesinə cəlb edilməsi;
2) İnklüziv tərif – məişət və intim partnyor zorakılığının tərifi geniş olmalıdır və ailə münasibətlərinin mürəkkəbliyi nəzərə alınmalıdır;
3) Əlillik bir risk kimi – nəzərə alınmalıdır ki, əlilliyi olmaq qadınları məişət zorakılığına məruz qalma riski ilə daha çox üz-üzə qoya bilər;
4) Əlillik haqqında məlumatlar:
    a) Müəyyənləşdirmə – bir çox əlilliklər, xüsusi olaraq soruşulmadığı və ya açıqlanmadığı halda gizli qala bilir;
    b) Ehtiyaclar – əlçatanlıq baxımından ehtiyaclara (ünsiyyət tələbləri, işarə dilinin tərcüməsi, şəxsi baxıcı, ünsiyyət üçün əlavə vaxt, hərəkətlilik vasitələri və s.) cavab verən xidmətlər yaratmaq üçün mühümdür;
5) Əlçatanlıq:
    a) Fiziki
    b) Proqramatik
    c) Sənədlər əsasında məlumatlar
    d) Xüsusi məlumat: inklüziv ünsiyyət/məlumat
    e) Xüsusi məlumat: digər əhali qrupları
6) Sektorlararası əməkdaşlıq;
7) İnsan Hüquqlarına əsaslanan yanaşmaların tətbiqi:
    a) Qanunvericilik
    b) İnsan Hüquqları perspektivi
    c) Gender perspektivi
    d) Sosial ədalət perspektivi
8) İşçi heyətin inkişafı – formal təlimlər, bilik və bacarıqların gücləndirilməsi və təcrübə mübadiləsinin təşkili.

Yuxarıda təqdim olunan minimum standartlardan 1-4 və 7-ci əsasən təlimatlara və siyasət sənədlərinə aid olsa da, 5-6 və 8 standartlar QQZ/MZ qurbanı olan əlil qadınlara göstərilən dəstək xidmətləri ilə birbaşa əlaqəli ola bilər.

---

Standards_Strategies_to_Improve_Interventions_for_Women_With_Disabilities

# Azərbaycanda məişət zorakılığının qurbanı olan əlilliyi olan şəxslərin və ahılların dəstək xidmətlərinə olan ehtiyaclarının qiymətləndirilməsi

Məişət zorakılığının qurbanı olan yaşlıların və əlilliyi olan şəxslərin müdafiəsinin gücləndirilməsi məqsədilə onların ehtiyaclarının öyrənilməsi və zəruri məlumatların əldə edilməsi baxımından bu sahədə çalışan müvafiq dövlət orqanlarının səlahiyyətli şəxsləri, habelə yerli və beynəlxalq təşkilatların, ixtisaslaşmış QHT-lərin və müəssisələrin nümayəndələri ilə aparılan 16 müsahibə-görüşlər (11 qadın, 5 kişi müsahib) əvəzsiz vasitə olmuşdur. Hazırkı real şəraitində yaşlılar və əlilliyi olan şəxslərin müdafiəsi ilə bağlı vəziyyət və əsas xidmətlərə dair ehtiyaclar aşağıdakı kimi qruplaşdırılmışdır.

## Sığınacaq və digər yardımlarla təmin olunma

Hazırda hökumət tərəfindən QQZ/MZ qurbanları üçün tibbi, məhdud sayda psixoloji, hüquqi və müvəqqəti sığınacaq dəstək xidmətləri göstərilir. Lakin bu xidmətlər çox məhduddur və əksərən Bakı şəhərində, AQUPDK-nin regionalardakı bəzi UADM-də və ya BMT-nin dəstəyi ilə yaradılmış Qadın Resurs Mərkəzlərində və yaxud Bakı və Gəncə şəhərlərində fəaliyyət göstərən QHT-lərin təşkil etdiyi xidmətlərdir. Bundan əlavə BMT-nin Əhali Fondu ilə əməkdaşlıq çərçivəsində QQZ/MZ qurbanları üçün 860 saylı pilot Dəstək Xətti istifadəyə vermişdir. Bura edilən müraciətlər əsasında qurbanların müvafiq məlumatlandırılması həyata keçirilir, o cümlədən, ehtiyac olduğu zaman mövcud xidmət və hüquq mühafizə və ya digər qurumlara yönləndirilmə həyata keçirilir.

Müsahibədə iştirak edən şəxslərin əksəriyyəti bildirmişdir ki, hazırda QQZ/MZ qurbanları üçün minimum standartlara cavab verən tibbi, hüquqi, psixoloji, sığınacaq və

digər xidmətlər Azərbaycanın regionlarında və kəndlərində demək olar ki, mövcud deyil (Gəncə də olan QHT-nin göstərdiyi sığınacaq xidməti istisna olmaqla).

Bundan əlavə, MZ sahəsində olan mövcüd məhdud xidmətlərin heç biri (sığınacaqlar da daxil olmaqla) yaşlılara və əlilliyi olan şəxslərə, xüsusilə digər şəxslərin qayğısına ehtiyacı olan şəxslərə uyğunlaşdırılmayıb. Hökumətin (Zabratdakı mərkəz – hansı ki, bütün risk qrupuna daxil olan şəxslərə məhdud sığınacaq xidmət göstərir) və QHT-lərin nəzdindəki sığınacaqlar birbaşa olaraq bu qrup şəxslərə xidmətlər göstərmirlər, eləcə də bu şəxslər üçün nəzərdə tutulmuş xüsusi xidmətlər mövcud deyildir.

Həm dövlət, həm də yerli təşkilatlar tərəfindən qeyd olunan xidmətlərin yaşlı insanlara və əlilliyi olan şəxslərə göstərməsinin qarşısını alan maneələr və çətinliyə gəldikdə, əksər müsahiblər aşağıdakı vacib məqamları qeyd etmişdirlər:

- MZ-na məruz qalan yaşlı və ƏoŞ-in, xüsusilə də yaşı və ya əlilliyi ilə əlaqədar eşitmə, görmə və danışma pozuntusu olan şəxslərin xidmətlər barədə məlumatının olmaması və özlərinin müraciət edə bilməmələri.
- yaşlı və ƏoŞ-lərə ixtisaslaşmış sosial xidmət göstərəcək mərkəzlərinin olmaması.
- ixtisaslaşmış kadr çatışmazlığı.
- mövcud sığınacaqların giriş və otaqlarının yaşlı və ƏoŞ-ə uyğunlaşdırılmaması, eləcə də bu şəxslərə qulluq edəcək şəxsi baxıcıların və tibb personalının olmaması.
- istiqamətləndirmə zamanı yaşlı və ƏoŞ-in, xüsusilə də yaşı və ya əlilliyi ilə əlaqədar eşitmə, görmə və danışma pozuntusu olan şəxslərin ehtiyaclarının və problemlərinin müəyyən edilməsində kadr çatışmazlığı.
- xidmətlər barədə məlumatların yaşlı və ƏoŞ, xüsusilə də yaşı və ya əlilliyi ilə əlaqədar eşitmə, görmə və danışma pozuntusu olan şəxslərin ehtiyaclarına uyğun yayılmaması.
- maddi və texniki resursların azlığı, bina və sığınacaqlara giriş məhdudiyyəti.
- maliyyə imkanlarının olmaması, bu istiqamətdə mövcud olan institusional çərçivənin hələ inkişaf prosesində olması.
- zorakılığa məruz qalan yaşlı və ƏoŞ-in müraciətlərinin dinamikasının təhlilinin aparılmaması, və s.

# Xidmətlərin keyfiyyətin yaxşılaşdırılması və çeşidinin artırılması, əməkdaşlıq

Müsahibədə iştirak edən mütəxəssislər bildirmişdir ki, sosial xidmətçilər və ya evdə təhsil ilə məşğul olan olan müəllimlər müəyyən günlərdə yaşlı və ya əlilliyi olan şəxslərin (həm də əlilliyi olan uşaqların) evlərini ziyarət edirlər, lakin bu şəxslər belə MZ qurbanı olan və ya belə risk daşıyan şəxslərin zorakılıqdan müdafiə ilə bağlı məlumatlandırmasında və ya mövcud xidmətlərdən istifadə etmələri üçün istiqamətləndirlməsində yetərli bilik və təcrübəyə malik ediyillər. Bu da risk daşıyan bu cür şəxslərin aşkarlamaqda, onlar ilə əlaqə qurmaqda çətinlik yaradır. Ona görə yaşlı və ƏoŞ birbaşa işləyən şəxslər mütəmadi təlimlərə cəlb edilməli, onlar üçün xüsusi təlimat hazırlanmalıdır.

Ümumilikdə isə MZ ilə bağlı dəstək xidmətlərini təkmilləşdirilməsinə, stereotiplərlə mübarizə aparılmasına, geniş sistematik maarifləndirmə işlərinin aparılmasına, keys menecment təcrübəsinin gətirilməsinə, kadr potensialının artırılmasına, eləc də regionlarda sığınacaqların yaradılmasına və bütün MZ qurbanlarının maneəsiz hüquqi yardımla təmin olunması üçün qanunvericiliyin uyğunlaşdırılması və s. kimi işlər görülməlidir.

Bundan əlavə, yerli QHT-lərin nəzdindəki sığınacaq və yardım mərkəzlərinin maliyyələşdirilməsi həyata keçirilməlidir.

Digər bir vacib məqam xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması və çeşidinin artırılmasıdır. Müsahiblər qeyd etmişdir ki, bunun üçün ilkin olaraq qanunvericilikdə dəyişikliklər edilməli, yaşlılara və ƏoŞ-ə göstərilən xidmətlər sadəcə məişət xidməti ilə kifayətlənməməli, onların psixoloji reabilitasiyası və cəmiyyətə inteqrasiyası təşkil olunmalıdır.

Eyni zamanda, zorakılıq qurbanları ilə bağlı müraciətlərin çevik araşdırılması və istiqamətləndirmə mexanizimi təkmilləşdirilməlidir.  Buraya həm də qurbanların və ya risk qrupuna daxil olan şəxslərin müdafiəsinin effektiv təşkili üçün qurumlararası koordinasiya və məlumatların paylaşılması təşkil olunması daxildir.

Ən vacib ehtiyaclardan biri də MZ qurbanları, xüsusilə də MZ qurbanı olmuş yaşlı və ƏoŞ ilə işləyən bütün şəxslərin ixtisasartırma proqramlarına cəlb edilməsidir.

Qeyd olunmuşdur ki, müxtəlif maraqlı tərəflərin – hökumət, beynəlxalq inkişaf agentlikləri və tərəfdaşlar, vətəndaş cəmiyyəti təşkilatları (QHT-lər, media, akademik dairələr), özəl sektor QQZ/MZ, xüsusilə də yaşlı insanlara və ƏoŞ-lərə qarşı zorakılıq əleyhinə birlikdə mübarizə aparmaları və qurbanlar üçün dəstək xidmətlərin təşkil edilməsində böyük potensiala malikdir. Bu xüsusilə beynəlxalq təcrübələrin, standartların ölkəyə gətirilməsində olduqca vacibdir.

Bundan əlavə, QQZ/MZ, xüsusilə də yaşlı insanlara və ƏoŞ-lərə qarşı zorakılıq əleyhinə görülən işləri daha da gücləndirmək və davamlılığını təmin etmək üçün maraqlı tərəflər arasında koordinasiya və və əməkdaşlıq gücləndirilməlidir. Bunun üçün qeyd olunan tərəflərin birgə fəaliyyəti üçün hər bir qurum digər qurumların iş struktruru, iş prinsipi və səlahiyyətləri barədə məlumatlı olmalıdır. Hər bir qurum tərəfindən göstərilən xidmətlərin siyahısı digər əlaqəli təşkilatlarda olmalıdır.  Bu görülən işlərin təkrarlanmaması, əksinə bir-birini tamamlayan işlər görülməsində və qurbanların xidmətlərlə təmin edilməsində olduqca əhəmiyyətlidir.

# Dəstək xidmətləri haqqında məlumatlılığın artırılması

MZ qurbanlarına göstərilən dəstək xidmətləri haqqında məlumatlar əksər hallarda rəsmi saytlarda, sosial şəbəkə hesablarında yerləşdirilir. Bundan əlavə sığınacaq xidməti göstərən Təmiz Dünya təşkilatı öz xidmətləri barədə məlumatları TV, radio, sosial şəbəkələr vasitəsilə yaydığını bildirmişdir. Həmçinin qeyd olunmuşdur ki, əksər təşkilatlar xidmətlər haqqında məlumatı keçirilən tədbirlərdə və ya digər qurumlarla ikitərəfli görüşlər zamanı əlaqə nömrələri və ya xidmətlər haqqında lifletlərin paylanması ilə həyata keçirilir. Lakin mövcud olan xidmətlər haqqında insanların məlumatlandırılması zəif həyata keçirilir, resurs mərkəzləri olmayan bölgələrdə bu iş demək olar ki, aparılmır.

Yaşlı insanların, elcə də yaşı ilə əlaqədar və ya görmə və eşitmə pozuntusu olan şəxslərin mövcud dəstək xidmətləri haqqında məlumatlandırılması üçün heç bir iş aparılmır. Hətta yaşlılar və görmə və ya eşitmə pozuntusu olan şəxslərin ümumi sosial xidmətlər barədə məlumat almaları üçün uyğun tədbirlər görülmür. Buraya həm bütün dövlət qurumları və onların yerli təşkilatları, eləcə də beynəlxaq və yerli təşkilatların həyata keçirdiyi maarifləndirmə və məlumatlandırma vasitələrini də aid etmək olar.

Buna görə də yaşlılar və ƏoŞ-in mövcud dəstək xidmətləri haqqında məlumatlandırılması üçün əlavə tədbirlər görülməlidir. Belə məlumatlandırma vasitələri yaşlıların və əlilliyi olan insanların ehtiyaclarına görə hazırlanmalı, həmçinin məlumatların yazı şrifti və forması bütün kateqoriya əlilliyi olan insanlar üçün əlçatan olmalıdır. Xüsusilə regionlarda yaşayan insanların məlumatlara çatımlılığına şərait yaradılmalıdır.

# Nəticə və tövsiyələr

Son illər MZ ilə mübarizə sahədə milli qanunvericilik bazasının təkmilləşdirilməsi və onun icrasına dair Milli Fəliyyət Planının qəbulu, regionlarda Qadın Resurs Mərkəzləri və UADM-lərin yaradılması, 860 saylı Dəstək Xəttinin istifadəyə verilməsi görülmüş müsbət tədbirlərdir. Lakin hələ də ölkədə məişət zorakılığı qurbanları üçün dəstək xidmətlərinin göstərilməsi (sığınacaq, məsləhət və psixoloji xidmətlər, hüquqi yardım və s) və bu xidmətlərin şəhər və ucqar bölgələrdə mövcudluğu və müyəssərliyi problem olaraq qalmaqdadır. Eyni zamanda, məişət zorakılığından zərərçəkmiş əlilliyi olan şəxslər və yaşlıların ehtiyaclarına uyğun inteqrasiya olunmuş sosial xidmətlər modeli mövcud deyil. Bu istiqamətində təşəbbüsləri əlqələndirmək və təkmilləşdirilmiş inklüziv xidmətlərin təşkili üçün aşağıdakı müvafiq tədbirlərin görülməsi tövsiyə olunur.

## MZ zərərçəkmiş ƏoŞ və yaşlıların ehtiyaclarına uyğun inteqrasiya olunmuş sığınacaq və digər xidmətlərin təşkili

Hazırda ƏƏSM nazirliyi Sosial Xidmətlər Agentliyinin nəzdindəki 12 regionlaşdırılmış filialları məişət zorakılığına məruz qalmış və ya məruz qalma ehtimalı olan şəxslərə ilkin psixososial dəstəyin göstərilməsi, eləcə də ilkin qiymətləndirmə aparılmaqla müraciətçiləri aidiyyatı qurumlara, eləcə də sığınacaqlara yönləndirmək istiqamətində işlər aparır. Nazirliyin nümayəndəsinin bildirdiyinə görə bu filialların fəaliyyəti yaxın gələcəkdə Böhran Mərkəzləri kimi də qurula bilər. Həmçinin yaxın gələcəkdə regionların birində MZ qurbanları üçün dövlət sığınacağı da yaradılacaqdır. Bunlar yaxşı bir imkandır ki, beynəlxalq standartlara cavab verən və təcrübələri (məsələn, Avstriyanın) nəzərə almaqla, yaradılacaq böhran mərkəzləri və sığınacaq yaşlı və ƏoŞ şəxslərin ehtiyaclarına uyğun təşkil olunsun. Bunun üçün yaradılacaq böhran mərkəzləri, eləcə də sığınacağın girişi və xidmət/yaşayış yerləri, mövcud xidmətlər və bu xidmətləri göstərən işçilərin sayının artırılması, o cümlədən xidmət personalının bilik və bacarıqlarının artırılması və s. kimi işlər görülə bilər.

Yaradılacaq Böhran Mərkəzlərində (eləcə də AQUPDK-nin regionlardakı bəzi UADM-də, məsələn İsmayıllı UADM) ümumi MZ qurbanları ilə yanaşı, yaşlı və ƏoŞ-lərə aşağıdakı xidmətlər göstərilə bilər:

- bir və ya bir neçə günlük üçün təhlükəsiz yer (otaq/mənzil);

- hüquqları və mümkün növbəti addımlar haqqında məlumat və məsləhət;
- psixoloji konsultasiya;
- ədliyyə, polis və qəyyumluq idarələri, habelə vəkil, tibbi sığorta, sosial xidmət kimi digər dövlət və qeyri-dövlət xidmətləri ilə əlaqə saxlamaqda köməklik;
- sığınacaq və digər qayğı və dəstək xidmətləri və müəsissələrinə istiqamətləndirmə.

Böhran mərkəzlərinin 24/7 saat açıq telefon nömrələri olmalı, yaşlı və ƏoŞ üçün asan əlaqə saxlamaq imkan və vasitələri yaradılmalıdır. Təklif olunan bütün xidmətlər pulsuz olmalıdır.

Hazırkı və yaradılacaq sığınacaqların yaşayış yerlərinin bir hissəsi (məsələn otaqların 20-30%-i) MZ qurbanı olmuş yaşlı və əlilliyi olan şəxslərin ehtiyaclarına uyğun təşkil oluna bilərlər. Belə sığınacaqlar  MZ qurbanı olmuş və ya belə risk daşıyan yaşlı və ƏoŞ-lərə üzbə-üz şəklində psixo-sosial dəstək göstərməklə yanaşı, hüquqi konsultasiya, həmçinin dövlət qurumlarından kömək almaqla bağlı müraciətlərin edilməsində köməklik edə və koordinasiyanı (sosial müdafiə qurumları, məhkəmə və hüququ mühafizə orqanları, vəkil və digərləri ilə əlaqə yaratmaq) apara bilərlər.

Eləcə də dövlət müstəqil QHT-lərin nəzdindəki sığınacaq və yardım mərkəzlərinin yaşlı və ƏoŞ-lərə uyğunlaşdırmalarına (binaya giriş, yaşayış yeri, xidmət personalın sayının artırılması və s), həmçinin ixtisaslaşmış kadr potensialının artırılmasında maliyyə və texniki yardım göstərə bilər.

Xüsusilə diqqət verilməlidir ki, həm dövlət, həm də QHT-lər tərəfindən yaradılmış yardım mərkəzləri və sığınacaqlar fiziki və mental vəziyyəti səbəbindən müstəqil özünə qulluq edə bilməyən MZ qurbanı yaşlı və ƏoŞ -də bütün xidmətlərdən istifadə  edə bilsinlər.

MZ qurbanı olan yaşlılar və ƏoŞ-in bütün xidmətlərdən faydalanmaları və istifadə edə bilmələri üçün bərabər şərtlərin və imkanların yaradılmasına ayrıca diqqət yetirilməlidir. Buraya həm də yaşlıların və əlilliyi olan şəxslərin digərləri ilə bərabər səviyyədə fiziki mühit, nəqliyyat, informasiya və rabitədən, o cümlədən informasiya-kommunikasiya texnologiyaları və sistemlərindən, sığınacaq və digər xidmət obyektlərinə giriş və yerləşmə, xidmətlərdən istifadələrinin təmin olunması üçün zəruri tədbirlərin görülməsi daxildir

## Mövcud xidmətlər haqqında məlumatlılığın artırılması

Mövcud xidmətlər haqqında məlumatlar brayl şrifti, işarə dili və oxunması asan materiallar kimi xüsusi ehtiyaclara uyğun üsullarla çatdırılması üçün əlavə tədbirlər görülə bilər. Eyni zamanda həmin məlumatlar müxtəlif yerlərdə (məsələn: yaşlılar və ƏoŞ ilə işləyən təşkilatlar, səhiyyə müəssisələri, dövlət qurumları və s.) yayıla bilər.

Eyni zamanda naviqasiyası asan olan veb-saytlar vasitəsilə sığınacaqlar və dəstək/böhran mərkəzləri haqqında məlumatların ötürülməsi çox vacibdir.

## MZ qurbanı olmuş və ya belə risk daşıyan yaşlıların və ƏoŞ aşkarlanması, sektorlararası əməkdaşlıq və işçi heyətin inkişafı

Yaşlılar və ƏoŞ ilə birbaşa işləyən sosial işçilər və xidmətçilər, eləcə də evdə təhsil verən müəllimlər, yerli bələdiyyə, polis, səhiyyə və icra nümayəndələri, yerli icmaların aktiv üzvləri tərəfindən bu cür şəxslərə qarşı zorakılıq hallarını və ya belə zorakılıq riskini aşkarlamaq və həmin şəxslərin müvafiq xidmətlərlə təmin olunmasına kömək etmələri barədə təlimatlar hazırlana və geniş tətbiq edilə bilər.

Yaşlılar və əlilliyi olan insanların göstərilən xidmətlərdən maksimum dərəcədə faydalanmaları üçün sosial işçilər və ayrı-ayrı qurumların əməkdaşları öz münasibətlərini, mədəniyyətini və etik normalarını təkmilləşdirmələri üçün sektorlararası əməkdaşlıq çox vacibdir. Sektorlararası əməkdaşlıq – məişət zorakılığına qarşı və əlilliyi olan şəxslərə xidmət sahəsində çalışan şəxslər (xidmət təminatçıları) arasında gücləndirilmiş əlaqələri, bilik və ən yaxşı təcrübələri paylaşmağı nəzərdə tutur. Sektorlararası əməkdaşlığın olmaması məişət zorakılığının qurbanı olmuş yaşlılar və əlilliyi olan şəxslərin ehtiyaclarına adekvat cavab vermək və onlara dəstək olmaqda maneə ola bilər.

Sosial işçilər və xidmətçilərə, polis əməkdaşlarına, məhkəmə orqanlarına və qanuni nümayəndəlik institutlarının nümayəndələrinə zorakılıq ilə yaşlılıq və əlilliyin kəsişməsi, zorakılığın potensial qurbanı ola biləcək yaşlılar və əlilliyi olan şəxslərin necə aşkar edilməsi və bu insanların dəstəkləyici xidmətlərin göstərilməsi üzrə təlimlər təşkil edilə bilər.

# Əlavə 1: Məişət zorakılığına məruz qalmış ahıllar və əlilliyi olan şəxslərə xüsusi dəstək proqramı

Azərbaycan Respublikası prezidentinin 27 noyabr 2020-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın 12.4.4-cu bəndi ilə məişət zorakılığı ilə mübarizə sahəsində əlilliyi olan şəxslər və ahıllar üçün onların ehtiyaclarını nəzərə alacaq xüsusi dəstək proqramlarının hazırlanması Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə edilmişdir.

Sözügedən dəstək proqramlarının hazırlanmasına texniki dəstək vermək məqsədilə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və NIRAS İsveç tərəfindən icra olunan "Aİ Gender Bərabərliyi naminə: İslahat üzrə Yardım Xidməti" ("EU4Gender Equality: Reform Help Desk") layihəsi çərçivəsində ilkin qiymətləndirmə aparılmış, məişət zorakılığından zərərçəkmiş şəxslərə dəstək xidmətlərinin göstərilməsinə dair beynəlxaq yanaşma və minimum standartlar, elcə də müxtəlif ölkələrin təcrübələrini də əks etdirən Təlimat hazırlanmışdır. Bu Proqram təklifi də həmin Təlimata əlavə olaraq hazırlanmışdır.

Bu Proqram, həmçinin, məişət zorakılığından zərərçəkmiş əlilliyi olan şəxslər və yaşlıların ehtiyaclarına uyğun inteqrasiya olunmuş sosial xidmətlər modelinin inkişafı istiqamətində təşəbbüslərin əlqələndirilməsi və təkmilləşdirilməsi üçün müvafiq hökumət, vətəndaş cəmiyyəti, özəl sektor və beynəlxalq inkişaf tərəfdaşları, o cümlədən, BMT-nin agentlikləri ilə sinerji yaratmaqla da icra oluna bilər.

## Məişət zorakılığına məruz qalmış ahıllar və əlilliyi olan şəxslər üçün xüsusi dəstək proqramın həyata keçirilməsinə dair

## TƏDBİRLƏR PLANI

| Sıra №-si | Tədbirin adı | İcraçılar/ Tərəfdaşlar | İcra müddəti |
|---|---|---|---|
| **1. ƏoŞ və yaşlıların ehtiyaclarına uyğun inteqrasiya olunmuş sığınacaq və digər xidmətlərin təşkili** | | | |
| 1.1 | Hazırkı (və yaradılacaq) dövlət və QHT-lər nəzdindəki sığınacaq və yardım mərkəzlərinin (ƏƏSM Nazirliyinin Sosial Xidmətlər Agentliyinin nəzdindəki sığınacaq və yaradılacaq Böhran Mərkəzlərinin, eləcə də AQUPDK-nin regionalardakı bəzi UADM-nin, məsələn İsmayıllı UADM və Təmiz Dünya təşkilatının nəzdindəki sığınacaq) bir hissəsinin (məsələn 20-30%-i) MZ qurbanı olmuş yaşlı və əlilliyi olan şəxslərin (xüsusilə də fiziki və mental vəziyyəti səbəbindən müstəqil özünə qulluq edə bilməyən şəxslərin) ehtiyaclarına uyğun təşkil olunması<br><br>1.1.1. fiziki mühit - obyektlərə giriş və yerləşmə;<br><br>1.1.2. nəqliyyat;<br><br>1.1.3. informasiya və rabitədən, o cümlədən informasiya-kommunikasiya texnologiyaları və sistemlərindən istifadə,<br><br>1.1.4. xidmət personalın sayının artırılması (tibb, sosial xidmətçi, və s).<br><br>1.1.5. yeni və mövcud personalın bu sahədə bilik və bacarıqlarının artırılması | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi,<br><br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br><br>Maliyyə Nazirliyi<br><br>Vətəndaş cəmiyyəti, beynəlxalq inkişaf tərəfdaşları, o cümlədən, BMT-nin agentlikləri ilə əməkdaşlıq | 2023 – 2024 |

| | | | |
|---|---|---|---|
| 1.2 | QHT-lərin nəzdindəki sığınacaq və yardım mərkəzlərin yaşlı və ƏoŞ-in ehtiyaclarına uyğunlaşdırılması məqsədilə zəruri tədbirlərin görülməsi/xərclərin qarşılanması üçün maliyyə və texniki yardım göstərilməsi<br><br>QHT-lərin sığınacaq və yardım mərkəzlərinin ümumi MZ qurbanları ilə yanaşı, yaşlı və ƏoŞ-lərə xidmətlərin göstərməsini stimullaşdıran tədbirlərin hazırlanması və icrasının təmin edilməsi (hər bir qurban üçün müəyyən maliyyə dəstəyi, qrant müsabiqələrində belə QHT-lərə üstünlük verilməsi və s.) | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br><br>Maliyyə Nazirliyi<br><br>QHT-lərə Dövlət Dəstəyi Agentliyi<br><br>Vətəndaş cəmiyyəti, beynəlxalq inkişaf tərəfdaşları, o cümlədən, BMT-nin agentlikləri ilə əməkdaşlıq | Mütəmadi |
| 1.3 | Sığınacaq və yaradılacaq Böhran Mərkəzlərində (eləcə də AQUPDK-nin regionalardakı bəzi UADM-də, QHT-lərin sığınacaq və yardım mərkəzlərində) ümumi MZ qurbanları ilə yanaşı, yaşlı və ƏoŞ-lərə aşağıdakı xidmətlərin göstərilməsi:<br><br>1.3.1. bir və ya bir neçə günlük təhlükəsiz məkan (otaq/mənzil);<br><br>1.3.2. Yaşlı və ƏoŞ-lərin hüquqları, sosial təminatlar və mümkün növbəti addımlar barədə məlumat və məsləhət;<br><br>1.3.3. Yaşlı və ƏoŞ-lərə psixoloji konsultasiya;<br><br>1.3.4. ədliyyə, polis və qəyyumluq idarələri, habelə vəkil, tibbi sığorta, sosial xidmət kimi digər dövlət və qeyr-dövlət xidmətləri ilə əlaqə saxlamaqda köməklik;<br><br>1.3.5. sığınacaq və digər qayğı və dəstək xidmətləri və müəsissələrinə yönəltmə. | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi,<br><br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br><br>Daxili İşlər Nazirliyi,<br><br>Ədliyyə Nazirliyi,<br><br>İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi.<br><br>Vətəndaş cəmiyyəti, beynəlxalq inkişaf tərəfdaşları, o cümlədən, BMT-nin agentlikləri ilə əməkdaşlıq | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| 1.4 | 24/7 saat açıq telefon/qaynar xəttin yaradılması, o cümlədən yaşlı və ƏoŞ üçün asan əlaqə saxlamaq imkan və vasitələrin yaradılması üzrə əlavə tədbirlərin görülməsi. | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi,<br><br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br><br>Daxili İşlər Nazirliyi | 2023 – 2024 |
| **2. Mövcud xidmətlər haqqında məlumatlılığın artırılması** | | | |
| 2.1 | Mövcud xidmətlər haqqında məlumatların brayl şrifti, işarə dili və oxunması asan materiallar kimi xüsusi ehtiyaclara uyğun üsullarla çatdırılması üçün əlavə tədbirlər görülməsi | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi,<br><br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br><br>Maliyyə Nazirliyi<br>Vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq | Mütəmadi |
| 2.2 | Xidmətlər haqqında məlumatların müxtəlif yerlərdə (məsələn: yaşlılar və ƏoŞ ilə işləyən təşkilatlar, DOST, ASAN mərkəzləri, səhiyyə müəssisələri, dövlət qurumları və s.) yayılması | | |
| 2.3 | Naviqasiyası asan olan veb-saytlar vasitəsilə sığınacaqlar və dəstək/böhran mərkəzləri haqqında məlumatların yayılması | | |
| **3. MZ qurbanların və ya belə risk daşıyan yaşlıların və ƏoŞ aşkarlanması, sektorlararası əməkdaşlıq və işçi heyətin bacarıqlarının artırılması** | | | |
| 3.1 | Yaşlılar və ƏoŞ ilə birbaşa işləyən sosial işçilər və xidmətçilər, eləcə də evdə təhsil verən müəllimlər, yerli bələdiyyə, polis, səhiyyə, icra hakimiyyəti və qəyyumluq-himayəçilik institutlarının nümayəndələri, yerli icmaların aktiv üzvləri üçün müvafiq təlimatların hazırlanması və təlimlərin təşkili (zorakılıq ilə yaşlılıq və əlilliyin kəsişməsi, zorakılığın potensial qurbanlarının aşkar edilməsi və bu insanların dəstəkləyici müvafiq xidmətlərə yönləndirilməsi və s.) | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi,<br><br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br><br>Vətəndaş cəmiyyəti, beynəlxalq inkişaf tərəfdaşları, o cümlədən, BMT-nin agentlikləri ilə əməkdaşlıq | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| 3.2 | Sektorlararası əməkdaşlığın gücləndirilməsi və ən yaxşı təcrübələrin mütəmadi paylaşılması | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi,<br><br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi<br><br>Vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq | Mütəmadi |

# Əlavə 2: Tədqiqat çərçivəsində sorğu edilən maraqlı tərəflərin siyahısı

1. Taliyə İbrahimova – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquq Departamentinin rəhbəri.
2. Lətifə Əliyeva – AQUPDK tabeçiliyində fəaliyyət göstərən İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru.
3. Əkbər Əkbərov – Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşı.
4. Aydan Abdulnağıyeva – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin Səyyar Sosial Xidmətlərin Təşkili Departamentinin əməkdaşı.
5. Rauf Cəfərov – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST Agentliyinin DOST Xidmətləri Departamentinin Səyyar və Sosial Xidmətlər Şöbəsinin baş məsləhətçisi.
6. Sara Ağayeva – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Xidmətlər Agentliyinin Sosial Müəssisələrlə İş Departamentinin müdir müavini.
7. Rəna Fərəcova – Sabunçu Rayon İcra Hakimiyyətinin başçısının müavini, İcra Hakimiyyəti yanında “Gender  zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə Monitorinq Qrupu”nun rəhbəri.
8. Anar Xələfov – Təhsil Nazirliyinin Ümumi və Məktəbəqədər Təhsil Şöbəsinin məsləhətçisi.
9. Hicran Kazımova –TƏBİB-in Tibbi Yardımın Təşkili Şöbəsinin koordinatoru.
10. Fərid Süleymanov – Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin İnklüziv təhsil üzrə mütəxəssisi.
11. Mehriban Zeynalova – “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin Sədri.
12. Nərmin Qanıyeva – “Üçüncü Bahar” Təşəbbüs Qrupunun rəhbəri.
13. Davud Rəhimli – Əlillər Birliyinin Sədri.
14. Bəhicə Əliyeva – BMT-nin Əhali Fondunun (UNFPA) Gender Məsələləri üzrə Proqram Müşaviri.
15. Vüsalə Qarayeva – BMT-nin İnkişafı Proqramının (UNDP) layihə rəhbəri.
16. Flora Poladova – Britaniya Şurasının keçmiş layihə rəhbəri.

# Biblioqrafiya

1. Avropa Şurası, Qadınlara qarşı zorakılıqla mübarizə: dəstək xidmətləri üçün minimum standartları, 2008. https://www.coe.int/t/dg2/equality/domesticviolencecampaign/Source/EG-VAW-CONF(2007)Study%20rev.en.pdf

2. Avropa Şurasının "Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və onunla mübarizəyə dair Konvensiyası"nın İzahlı Hesabatı. https://eige.europa.eu/resources/Explanatory%20report.pdf

3. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu". 2010, http://e-qanun.az/framework/20131

4. "Məişət zorakılığından zərər çəkmiş şəxslərə yardım mərkəzlərinin fəaliyyəti Qaydası" və "Məişət zorakılığından zərər çəkmiş şəxslərə qeyri-dövlət yardım mərkəzlərinin akkreditasiyası Qaydaları" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 2012. http://www.e-qanun.az/framework/23457?msclkid=2e22caddb52511ec9075cc17220a1603

5. "Məişət zorakılığı ilə bağlı məlumat bankının təşkili və aparılması Qaydaları" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 2011.

6. "Məişət zorakılığı törətmiş şəxslərin profilaktik qeydiyyata götürülməsi və həmin şəxslərlə tərbiyəvi-qabaqlayıcı işin aparılması Qaydası" təsdiq edilməsi haqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 2011. http://e-qanun.az/framework/22718?msclkid=6e800d3ab52611ec9c5c11fe1d90b905

7. "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 2012. http://e-qanun.az/framework/23241?msclkid=8dad79bfb52311ec90ed9d7dcedb0408

8. "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2020. http://www.e-qanun.az/framework/46358?msclkid=a3e34266b54011ec9cd639a0df4a983c

9. BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyası, 2006. https://www.internationaldisabilityalliance.org/sites/default/files/documents/crpd_english.pdf

10. BMT-nin Baş Assambleyasının Yaşlılar üçün Prinsipləri haqqında 46/91 saylı qətnaməs. 1991.

11. Avstraliya Statistika Bürosu. Əlillik və Zorakılıq.2021. https://www.abs.gov.au/statistics/people/crime-and-justice/focus-crime-and-justice-statistics/disability-and-violence-april-2021

12. Robinson S, Frawley P, Dyson S. Access and Accessibility in Domestic and Family Violence Services for Women With Disabilities: Widening the Lens. Violence Against Women. 2021. DOI: 10.1177/1077801220909890

13. Human Rights Watch. “As if we weren’t human: discrimination and violence against women with disabilities in northern Uganda.” 2010. New York: Human Rights Watch.

14. Sosial Xidmət haqqında Qanun. 2011. http://www.e-qanun.az/framework/23195

15. Dünya Səhiyyə Təşkilatı. Yaşlılara qarşı zorakılıq. 2021. https://www.who.int/en/news-room/fact-sheets/detail/elder-abuse

16. Yaşlılar üzrə Milli Şura. Yaşlılara qarşı zorakılıq haqqında faktları əldə edin. 2021. https://www.ncoa.org/article/get-the-facts-on-elder-abuse

17. Yon Y, Mikton CR, Gassoumis ZD, Wilber KH. Elder abuse prevalence in community settings: a systematic review and meta-analysis. Lancet Glob Health. 2017 Feb;5(2):e147-e156. doi: 10.1016/S2214-109X(17)30006-2. PMID: 28104184. (LINK)

18. Əhalinin Sosial Müdafiəsi Nazirliyinin internet səhifəsi. https://www.sosial.gov.az/SXA

19. Sosial Xidmət Agentliyinin Nizamnasəmi. 2020. https://president.az/az/articles/view/39394

20. Bakı Xəbər “Zorakılıq qurbanları üçün rəsmi sığınacaq düz 11 ildir ki, tikilmir, 2021. https://www.baki-xeber.com/sosial/121560.html?msclkid=f7268919b55d11ecbc21faaca6a11721

21. Vəkillər və vəkillik fəaliyyəti haqqında Qanun.1999. http://www.e-qanun.az/framework/257

22. AZƏRTAC, https://azertag.az/xeber/Azerbaycanda_meiset_zorakiligindan_zerer_chekmis_sexslere_huquqi_yardim_gosterilmesine_dair_Anlasma_Memorandumu_imzalanib-1366881

23. AQUPDK-nin rəsmi veb-səhifəsi. http://scfwca.gov.az/page/meiset-zorakiliginin-qarsisinin-alinmasi?msclkid=771828aeb56b11ec91f39e8e528214b1

24. AQUPDK-nin nəzdində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin Əsasnaməsi. http://scfwca.gov.az/store/media/UADM-esasname.pdf

25. CEDAW Komitəsi "Əlilliyi olan Qadınlar haqqında 18 saylı Ümumi Tövsiyəsi. http://eidhr.wiki.huji.ac.il/images/Cedawgr18-en.pdf

26. CEDAW Komitəsinin "Qadınlara qarşı gender əsaslı zorakılığa dair 35 saylı Ümumi Tövsiyəsi" https://tbinternet.ohchr.org/Treaties/CEDAW/Shared%20Documents/1_Global/INT_CEDAW_GEC_3731_E.pdf

27. CEDAW Komitəsinin "Yaşlı qadınlar və onların insan hüquqlarının müdafiəsi haqqında 27 saylı Ümumi Tövsiyəsi". https://www2.ohchr.org/english/bodies/cedaw/docs/CEDAW-C-2010-47-GC1.pdf

28. GREVIO, İlkin Qiymətləndirmə Hesabatı, İsveç. 2019. https://rm.coe.int/090000168091e686

29. Brottsofferjouren – cinayət qurbanlarına, şahidlərə və cinayətdən təsirlənən digər insanlara köməklik və dəstək göstərən qeyri-hökumət təşkilatıdır. https://www.brottsofferjouren.se/

30. NKVTS, "Bələdiyyələrin qadınlara qarşı zorakılıq ilə əlaqədar hərtərəfli fəaliyyəti" Hesabat, 2021. https://www.ldo.no/globalassets/_ldo_2019/_arrangementer/kommunenes-voldsarbeid_rapport_15juni2021.pdf

31. BMT-nin Qadınların İnkişafı Agentliyi. https://www.un.org/womenwatch/daw/egm/vaw-gp-2005/docs/experts/logar.dv.pdf

32. Avstriya Qadın Sığınacaqları Assosiasiyası. https://www.aoef.at/index.php

33. Avstriya Əlillərin Milli Şurası (OeAR) və Avropa Əlillər Forumun (EDF) birgə bəyannatı. https://tbinternet.ohchr.org/Treaties/CAT/Shared%20Documents/AUT/INT_CAT_NGO_AUT_22092_E.pdf

34. GREVIO Avstriya üzrə ilkin qiymətləndirmə hesabatı. 2017. https://rm.coe.int/grevio-report-austria-1st-evaluation/1680759619%20para%20204

35. WAVE, 2017. http://fileserver.wave-network.org/researchreports/Thematic-Paper-WWD-2017.pdf

36. Lucy Healey, Cathy Humphreys, İnklüziv Məişət Zorakılığı Standartları: Əlilliyi olan Qadınlar üçün Müdaxilələrin Təkmilləşdirilməsi üçün Strategiyalar? 2013. https://www.researchgate.net/publication/236072722_Inclusive_Domestic_Violence_Standards_Strategies_to_Improve_Interventions_for_Women_With_Disabilities

**Avropa İttifaqı tərəfindən maliyyələşdirilir**

Bu nəşr Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və NIRAS tərəfindən həyata keçirilən "AVROPA İTTIFAQI GENDER BƏRABƏRLİYİ NAMİNƏ İSLAHATA DƏSTƏK XİDMƏTİ" layihəsi çərçivəsində hazırlanıb. Onun məzmunu yalnız NIRAS-ın məsuliyyətidir və Avropa İttifaqının fikirlərini əks etdirmir.

reform.helpdesk@niras.se
ünvanına yazın

NIRAS
ilə əməkdaşlıqda icra edilir